QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 186 (5658) **3 oktyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# 1993-cü il 3 oktyabr

*İnkişaf, sabitlik və tərəqqinin başlanğıc tarixinə gedən yol*



Səh 2


Cənubi Qafqaz: geosiyasi reallığın iki aspekti



3

Görkəmli dövlət xadimi, ictimai-siyasi xadim Murtuz Ələsgərovun 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfrans keçirildi



4

Ziyafət Əsgərov: "İstənilən halda Paşinyanın destruktiv bəyanatları qətiyyən qəbul oluna bilməz"



7

Azərbaycan brendi olan "ASAN Xidmət" dünyaya nümunə olan modeldir



8

Erməni diversantı nələri etiraf etdi?



9

Səhiyyə Nazirliyi: Binə qəsəbəsində baş vermiş qəzada yaralananların müalicəsi davam etdirilir



9

14

"Avropadakı mühacirlər hansısa agentura şəbəkəsinin təlimatı ilə işləyirlər"



10

Ailə həkimi institutu nəyə xidmət göstərəcək?



16

Polo üzrə Avropa birinciliyində Azərbaycan millisinin mübarizlik kapriççosu



# 1993-cü il 3 oktyabr

## *İnkişaf, sabitlik və tərəqqinin başlanğıc tarixinə gedən yol*

***Azərbaycan xalqının tarixində xüsusi əhəmiyyətə malik olan, onun gələcək həyatını müəyyən edən, böyük başlanğıcın əsasını qoyan bir çox əlamətdar günlər var. Belə əlamətdar günlərdən biri də dövlətçilik tariximizdə mühüm ictimai-siyasi əhəmiyyət daşıyan 15 İyun Milli Qurtuluş Günüdür. Bu tarix Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.***

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə hakimiyyətsizlik, özbaşınalıq, xaos və anarxiya hökm sürürdü. Müstəqilliyimizin qorunub-saxlanılması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, əhalinin təhlükəsizliyinin təmin olunması və nəhayət, Azərbaycanın parçalanmaqdan xilası ən mühüm vəzifələr idi. Daxili və xarici siyasətdəki uğursuzluqlar nəticəsində, ölkənin müxtəlif bölgələrində separatçı qüvvələr baş qaldırdı, vətəndaş müharibəsi təhlükəsi yarandı. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası da ağır günlərini yaşayırdı. 1990-cı il iyulun 22-də Ümummilli Liderimizin Naxçıvana gəlişi xalqın böyük sevincinə səbəb oldu. Və bu, Azərbaycanın müstəqillik tarixində ən mühüm dövrlərdən sayılır.





1990-1993-cü illərdə Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edildi. Bu dövrdə görkəmli dövlət xadiminin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də Qədim Naxçıvan torpağını erməni təcavüzündən xilas etməsi idi. Artıq mövcud hakimiyyətsizlikdən, özbaşınalıqdan cana doyan xalq ölkənin xilasını yalnız Ulu Öndər Heydər Əliyevdə görür, ümidlərini ona bağlayırdı. Belə bir zamanda xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün Ulu Öndər Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Xalqın çağırışı ilə Ümummilli Lider 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi.

### Böyük xilaskarlıq QAYIDIŞI

Bu qayıdış Vətənin xilası, xalqın qurtuluşu idi. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan bu əlamətdar hadisə baş verməsəydi, xalqın istəyi və tələbi ilə 1993-cü ilin 15 iyununda Ulu Öndərimizin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, bu gün biz müstəqil, qüdrətli, hər zaman tərəqqi edən, yeniləşən və demokratiya yolunda inamla irəliləyən Azərbaycan dövləti də olmazdı. Məhz 1993-cü ilin iyununda Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunun əsası qoyuldu və nəticədə, qurtuluş savaşında irəliyə doğru dönüş başlandı.

Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilməsi xalqımızı həqiqi müstəqilliyə, Azərbaycan dövlətini isə inkişaf və tərəqqiyə qovuşdurdu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun dediyi kimi: "1993-cü ilə qədər Azərbaycanda hakimiyyətsizlik, siyasi hərc-mərclik, vətəndaş qarşıdurması hökm sürürdüsə, həmin tarixdən sonrakı dövr ölkəmizdə dövlət müstəqilliyinin möhkəmlənməsi ilə xarakterizə edilir. 1993-cü ildən sonra Azərbaycanın inkişafı göz qabağındadır. Əgər o vaxt Azərbaycanda xaos hökm sürürdüsə, bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idisə, bu gün Azərbaycanda əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdısa, bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycanda total böhran hökm sürürdüsə, bu gün Azərbaycan qüdrətli ölkəyə çevrilmişdir".

Məhz Dahi Öndər Heydər Əliyevin qətiyyəti sayəsində Azərbaycan 1994-cü ilin oktyabr və 1995-ci ilin mart hadisələri zamanı ağır sınaqlardan uğurla çıxdı, Azərbaycan xalqının inamını özünə qaytardı, ölkədə sabitlik və əmin-amanlıq yaratdı. Bununla da, Ulu Öndər qeyd etdiyi kimi, Azərbaycanın dövlət müstəqilliyi daimi, əbədi və dönməz olacaqdır...

### Düşünülmüş siyasətin uğurlu nəticələri

Ümummilli Lider Azərbaycanın müharibə vəziyyətində olmasını nəzərə alaraq düşmənlərimizin və onların beynəlxalq havadarlarının gücünü, planlarını, Azərbaycanın düşdüyü vəziyyəti düzgün dəyərləndirdi. Ölkəni düşdüyü vəziyyətdən çıxarmaq məqsədilə atəşkəs rejiminə nail oldu. Xalqımızın adı və dili, qüdrətimiz bərpa olundu, milli varlığımız qorundu, reallaşmaqda olan etnik toqquşmalar ehtimalı aradan qaldırıldı. Ulu Öndərin zəhmətidir ki, Azərbaycan xalqı vətəndaş müharibəsinə düçar olmadı. Azərbaycan Respublikası dünya arenasında demokratik-hüquqi və dünyəvi dövlət kimi tanınmağa başladı. Məhz böyük Şəxsiyyət Heydər Əliyev zəkasının məhsulu olan Konstitusiyamız qəbul olundu. Bu gün Azərbaycan dünyanın aparıcı dövlətləri ilə ikitərəfli, üçtərəfli və çoxtərəfli münasibətlərə malikdir. Azərbaycan türk dünyası və islam dövlətləri ailəsinin bərabərhüquqlu üzvüdür.

Ulu Öndər dünyanın siyasi mənzərəsində Azərbaycanın yerini müəyyən etməklə yanaşı, ölkənin iqtisadi həyatını da dirçəltməyə başladı. Xarici iqtisadi sərmayələrin ölkəyə axını başladı. Ölkənin iqtisadi inkişafının təminatına çevrilən "Əsrin müqaviləsi" imzalandı. Əsrin ən böyük layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin əsası da, məhz Ümummilli Liderin iştirakı ilə qoyuldu. Bu gün Azərbaycan uğurla inkişaf edən, özünü dünya birliyinə etibarlı tərəfdaş kimi təqdim edə bilən bir ölkəyə çevrilib.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev siyasi kursunu uğurla davam etdirməklə ölkəmizin demokratik imicinin möhkəmlənməsini təmin edir. Ölkə başçısı tərəfindən uğurla davam etdirilən inkişaf strategiyası nəticəsində, əldə olunan nailiyyətlər Azərbaycanın gələcəkdə də daha böyük uğurlar qazanacağına zəmin yaradır.

Bütün bunlar, onu göstərir ki, bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz nailiyyətlər və qazanılan uğurlar əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş siyasətin parlaq təcəssümüdür.

***RƏFİQƏ KAMALQIZI***

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Salyan rayonunun Arbatan-Marışlı-Seyidsadıqlı-Quyçu avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerə təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, ölkənizin milli bayramı - Alman Birliyi Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan-Almaniya münasibətlərinə böyük əhəmiyyət veririk. Bu baxımdan siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrimizin gündən-günə genişlənməsi məmnunluq doğurur. İnanıram ki, ölkələrimiz arasındakı əməkdaşlıq, eləcə də çoxtərəfli müstəvidə qarşılıqlı fəaliyyətimiz bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir. Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Almaniya xalqına daim sülh və rifah diləyirəm".

***

Dövlətimizin başçısı Koreya Respublikasının Prezidenti Mun Ce-ini də təbrik edib. Məktubda qeyd olunur: "Hörmətli cənab Prezident, Koreya Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm. İnanıram ki, Azərbaycan Respublikası ilə Koreya Respublikası arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir. Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram".

***Son zamanlar dünyanın böyük gücləri arasında geosiyasi mübarizənin daha da kəskinləşdiyi haqqında müxtəlif informasiyalar yayılır. O cümlədən ABŞ, Rusiya və İran arasında çəkişmələr güclənib. Bu, daha çox Yaxın Şərqdə hiss edilir. Konkret olaraq Suriya məsələsində həmin dövlətlər daha sərt mövqe nümayiş etdirirlər. Son olaraq BMT Baş Assambleyasının 73-cü sessiyasında ABŞ və İran prezidentləri bir-biri haqqında çox sərt ifadələr işlətdilər. Bunun ardınca İranın Əhvaz şəhərində hərbi parad zamanı terror aktı törədildi. Bu kimi qorxulu proseslərin fonunda Cənubi Qafqazda da hadisələrin gedişatı sürətlənib. Türkiyə və Rusiya prezidentləri Azərbaycana səfər etdilər. Nyu-Yorkda N.Paşinyanla H.Ruhani görüşdü. Gürcüstan Rusiyanı qoşunlarını Abxaziya və Cənubi Osetiyadan çıxarmağa çağırdı və s. Bütün bunların kontekstində Cənubi Qafqazda geosiyasi proseslərin başlıca əlamətləri hansılardır? Bu suala cavab üzərində bir qədər geniş dayanmağa ehtiyac görürük.***



# Cənubi Qafqaz: geosiyasi reallığın iki aspekti

## Fəallaşan güclər: qlobal və regional proseslər prizmasından

Cənubi Qafqaz qlobal geosiyasi oyunçuların maraq dairəsindən uzaqlaşmayıb. Əksinə, son dövrlərdə bu subregionla bağlı diqqəti çəkən proseslərə start verilib. Onları bir cümlə ilə belə xarakterizə etmək olar - Cənubi Qafqazla bağlı mübarizənin intensivliyi yeni səviyyəyə yüksəlib. Bu prosesdə yerli dövlətlərin hər birinin öz mövqeyi də özünü göstərir. Belə təəssürat yaranır ki, Cənubi Qafqazda geosiyasi dinamika getdikcə daha mürəkkəb xarakter ala bilər. Bu qənaət bir tərəfdən qlobal səviyyədə Qərb-İran-Rusiya çərçivəsində münasibətlərin daha da gərginləşməsindən, digər tərəfdən isə Ermənistanın hələ də qeyri-müəyyən və qeyri-konstruktiv xarici siyasət kursu yeritməsindən qaynaqlanır.

Belə görünür ki, İran məsələsi vurğulanan kontekstdə region üçün daha həssas məqama gəlməkdədir. ABŞ prezidenti BMT-nin Baş Assambleyasının 73-cü sessiyasında açıq bəyan etdi ki, Tehrana qarşı ən sərt tədbirlərə əl ata bilərlər. Səbəbi odur ki, İran həm nüvə silahı istehsal etmək niyyətindən əl çəkmir, həm də Yaxın Şərqdə Amerika və İsrailin maraqlarına zidd olan addımlar atır. Həmin sırada D.Tramp xüsusi xəbərdarlıq etdi: əgər İran ABŞ-a və onun Yaxın Şərqdəki müttəfiqlərinə (əsasən İsrail, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri nəzərdə tutulur - müəllif.) hansısa təhlükə yaradarsa, dərhal "qiyamət qopacaq".

Bu hədələrin fonunda İranın cənubunda yerləşən Əhvaz şəhərində törədilən terror aktı daha qorxulu ssenarilərin mövcud ola biləcəyi fikrini ağıllara gətirdi. İran xüsusi xidmət orqanları dərhal bəyanat verdilər ki, bu hadisənin arxasında ABŞ, İsrail və onların Yaxın Şərqdəki müttəfiqləri dayanır. Çox keçmədi ki, konkret ad da çəkildi - bu terroru Suriyada Səudiyyə Ərəbistanının dəstəklədiyi radikal qrup həyata keçirib.

Bundan bir neçə gün sonra KİV yeni məlumat yaydı. İran Suriyada Fərat çayının şərq hissəsində yerləşən radikal qruplara raket zərbələri endirib. Çoxlu sayda silahlı həlak olub. Tehran bəyan etdi ki, zərbə Əhvazda terror aktı törədən qrupa endirilib. Ekspertlər buna Amerika və İsrailin cavab verəcəyi qənaətindədirlər. Bununla Yaxın Şərqdə geosiyasi gərginliyin daha da artması gözləniləndir.

Həmin tendensiyanın fonunda İran və Rusiyanın Cənubi Qafqazda da fəallaşması hiss edilir. Ermənistan mətbuatı BMT-nin 73-cü sessiyası çərçivəsində N.Paşinyanla H.Ruhaninin görüşünü xüsusi təntənə ilə şərh etməyə çalışır. Guya tərəflər əməkdaşlığı gücləndirməkdə çox maraqlıdırlar. N.Paşinyanı isə Tehranda çoxdan gözləyirlərmiş.

Əslində isə real vəziyyət başqa cürdür. Bəli, Tehran istərdi ki, Qərbin təzyiqləri və sanksiyaları fonunda İrəvan onunla əlaqələri genişləndirsin. Lakin Ermənistan hakimiyyəti üçün dost yoxdur və faktiki olaraq müstəqil qərar qəbul edə bilməz. Məsələ həm də onunla bağlıdır ki, N.Paşinyan Qərbin mərhəmətini qazanmaq arzusundadır. İranla hər hansı yaxınlaşma onun bu istiqamətdəki yolunu bağlayır. Bu səbəbdən N.Paşinyan iki ay bundan əvvəl bəyan etdiyi İrana səfərini hələ də reallaşdıra bilmir. Deməli, İrəvan Tehranla çirkli geosiyasi oyun aparmaq yolunu tutub.

Digər yandan, Rusiya İran-Ermənistan münasibətlərinin müəyyən çərçivəni keçməsini istəmir. Xüsusilə enerji sahəsində onların əməkdaşlığına qısqanclıqla yanaşır. İran üçün Ermənistan əsas olaraq enerji marşrutu kimi lazımdır. Ancaq illərdir ki, "Qazprom" Tehranın bu arzusunu gözündə qoyur. Bu maneəni N.Paşinyanın aşa biləcəyi ehtimalı sıfırdır.

## Konstruktivlik və dağıdıcılıq: Bakı ilə İrəvanı fərqləndirən iki cəhət

Nəhayət, İrəvanın İranla əlaqələrə antitürk isterikası kontekstində məzmun verməyə çalışması onu həmişə fiaskoya uğradır. Erməni ekspertlər BMT-nin 73-cü sessiyasında Paşinyan-Ruhani müzakirələrini də birbaşa antiazərbaycan məzmunda təqdim etdilər (bax: məs., Akop Badalən. Sörpriz Paşinəna i Ruxani Baku / Lragir.am, 26 sentyabr 2018). Erməni rəsmilərinin daxili emosional və siyasi düşüncə faciəliyi aydındır. Ancaq indi İranı Azərbaycana qarşı qoymaq kimi sarsaq bir işə girişirlər. Çünki İran köklü dövlətdir, Ermənistan kimi forpost və qondarma deyil. Qos-qoca İran diplomatiyası Azərbaycanla Ermənistanı müqayisə edə bilmir? Və ya o dərəcədə sadəlövhdür ki, Yaxın Şərqdə müttəfiqi olan Türkiyənin maraqlarına uyğun gəlməyən addım atsın?

Erməni diplomatiyasının primitivliyi və acizliyi bununla məhdudlaşmır. Onlar V.Putinin Azərbaycana səfəri ilə Paşinyan-Ruhani söhbətini qarşı-qarşıya qoymağa çalışırlar. Bu hadisələr nə ranqına, nə müzakirə olunan məsələlərin məzmununa, nə də məqsədlərinə görə müqayisə oluna bilməz.

Hər şeydən öncə, V.Putin Azərbaycana işgüzar səfərə gəldi və konkret əməkdaşlıq mövzuları ilə çıxış etdi. Azərbaycanla Rusiya arasında energetika, nəqliyyat, humanitar sahə, iqtisadi-biznes sferası üzrə əməkdaşlıq barədə müzakirələr aparıldı. N.Paşinyanla H.Ruhani isə BMT sessiyasında məhdud vaxtda nəzakətli ünsiyyətdə olublar. Erməni ekspertlər nəyi nə ilə müqayisə etməyə cəhd göstərdiklərinin fərqindədirlərmi?

Onlar özlərini Rusiyaya da qarşı qoyurlar. Əsas qayğıları odur ki, Moskva Azərbaycanla müstəqil dövlət kimi davranır. V.Putin də son səfərində açıq bəyan etdi ki, Rusiya ilə Azərbaycanın münasibətləri bir-birinin marağını gözləməklə bərabərhüquqlu iki müstəqil dövlətin münasibətləri kimi inkişaf etdirilir. Bu prosesi o, "dövlətlərarası münasibətlər quruculuğu" kimi qiymətləndirdi.

Bəs erməni liderlər Moskvada nə deyirlər? Onlarla müstəqil dövlətin nümayəndəsi kimi danışmağı, Ermənistana təzyiq göstərməməyi, göstərişlər verməməyi, onların suverenliyinə hörmət etməyi xahiş edirlər. Bəli, fərq göz qabağındadır. Lakin ermənilər unudurlar ki, hansısa bir ölkənin suverenliyinə xahiş-minnətlə hörmət etmirlər, gərək fəaliyyətinlə müstəqil olduğunu sübut edəsən və sənin beynəlxalq sistemdə hansısa bir geosiyasi çəkin olsun. Ermənistan isə heç bir proqramı, siyasəti, diplomatiyası, dövlət kimi müstəqil mövqeyi ilə bu imici qazana bilməyib. Ona niyə hörmətlə yanaşsınlar?

Bunlarla yanaşı, yuxarıdakı müqayisələr də aydın göstərir ki, İrəvan "əməkdaşlıq" deyəndə, mütləq hansısa qonşusuna zərər vurmağa xidmət edən əlaqələri nəzərdə tutur. Yuxusunda Azərbaycanla Türkiyəni düşmən görür, durur, yenə də antiazərbaycan mərəzinə tutulur. Rusiya Ermənistana silah verir, İrəvan dərhal bəyan edir ki, "Azərbaycana gözdağı veririk". Rusiya Azərbaycanla əməkdaşlığı dərinləşdirir, dərhal küsür ki, "bu, yaxşı hal deyil"! Özünün real problemlərini sivil qaydada həll etmək əvəzinə başqalarına irad tutmaq dövlətçilik məfkurəsinə xidmət etmir.

Bunlar bir daha təsdiqləyir ki, Cənubi Qafqazda, əslində, geosiyasi proseslərin intensivləşməsinə iki cür reaksiya müşahidə edilir. Birincisi, Azərbaycan müstəqil siyasətini inkişaf etdirərək, mövqeyini daha da möhkəmləndirir. Hazırda Bakının bütün regional böyük dövlətlərlə - Rusiya, Türkiyə və İranla çox yaxşı münasibətləri mövcuddur. ABŞ-la qarşılıqlı faydalı əlaqələr inkişaf etdirilir. Gürcüstanla strateji tərəfdaşlığa uyğun olaraq münasibətlər dinamik inkişafdadır.

İkinci reaksiya Ermənistanın nümunəsində çaşqınlıq, məntiqsizlik, qeyri-konstruktiv davranışdan formalaşan yarıtmaz xarici siyasət kursu yeritməklə bağlıdır. Yenə də İrəvan öz ultraradikal, qeyri-insani və əsassız iddialarına davam edir. Bunun fonunda Rusiya, Azərbaycan və Türkiyəyə qarşı əsassız ittihamlar irəli sürür. İranla isə növbəti dəfə xəyali və aldadıcı geosiyasi oyuna girişir. Bunun sonunun iflas olacağına qətiyyən şübhə yoxdur.

Cənubi Qafqaz üçün əhəmiyyətli məsələ isə böyük oyunçuların daha intensiv yarışdığı bir mərhələdə Ermənistanın xaos və təhlükə mənbəyinə çevrilməsidir. Nataraz geosiyasi-diplomatik manevrləri ilə mövcud mənzərəni daha da mürəkkəbləşdirən və yeni ziddiyyətlər gətirən Paşinyan hakimiyyəti bütövlükdə bölgə xalqlarını faciəyə doğru sürükləyir.

**Newtimes.az**

# Görkəmli dövlət xadimi, ictimai-siyasi xadim Murtuz Ələsgərovun 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfrans keçirildi



***Dünən Bakı Dövlət Universitetində Azərbaycan Respublikası Milli Məclisinin, Yeni Azərbaycan Partiyasının və BDU-nun birgə təşkilatçılığı ilə görkəmli dövlət xadimi, tanınmış ictimai-siyasi xadim, əməkdar hüquqşünas, professor Murtuz Ələsgərovun anadan olmasının 90 illik yubileyi münasibətilə beynəlxalq elmi konfrans keçirilib.***

Tədbir iştirakçıları, ilk olaraq Fəxri Xiyabanda görkəmli dövlət xadiminin məzarını ziyarət edib, önünə əklil qoyublar.

Konfransdan əvvəl BDU-nun hüquq fakültəsində Murtuz Ələsgərovun uzun illər rəhbərlik etdiyi Konstitusiya hüququ kafedrasının qarşısında barelyefinin açılışı olub.

Elmi konfransda professor Murtuz Ələsgərovun əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra tədbiri giriş sözü ilə açan BDU-nun rektoru, akademik Abel Məhərrəmov bu gün Azərbaycan elmi-ictimai həyatında əlamətdar bir günün olduğunu qeyd edərək, bugünkü konfransda görkəmli professorun həyat və elmi, ictimai-siyasi həyatı ilə bağlı 105-dən artıq bölmələr üzrə məruzələrin və çıxışların dinləniləcəyini qeyd etdi. M.Ələsgərovun əvəzolunmaz xidmətlərinə nəzər salan rektor Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan Respublikası Milli Məclisinin sədri olduğunu və bütün fəaliyyəti ilə dövlətə və xalqa xidmət göstərdiyini qeyd etdi. Professorun təhsil illərinə nəzər salaraq, 1950-1953-cü illərdə SSRİ Elmlər Akademiyasının Dövlət və Hüquq İnstitutunun aspiranturasında təhsilini davam etdirərək, beynəlxalq hüquq sahəsində ali təhsilə yiyələndiyini və 1954-cü ildən ömrünün sonunadək Bakı Dövlət Universitetinin hüquq fakültəsində dərs dediyini bildirdi. A.Məhərrəmov onun beynəlxalq hüquq sahəsində həm ilk elmlər namizədi, həm də ilk elmlər doktoru, professor olmuş azərbaycanlı olduğunu söylədi: "M.Ələsgərov müxtəlif illərdə universitetdə baş müəllim, dosent, professor və kafedra müdiri, 1993-1996-cı illərdə isə universitetin rektoru olmuşdur".











Konfransda çıxış edən Milli Məclisin sədri Oqtay Əsədov tanınmış alimin Azərbaycanda hüquq elminin inkişafında mühüm xidmətləri olduğunu bildirdi. Qeyd etdi ki, elmi araşdırmaları ilə elmi ictimaiyyətin dərin rəğbətini qazanan, beynəlxalq hüquq sahəsində böyük nüfuz sahibi olan Murtuz Ələsgərov 200-dən artıq elmi əsərin, o cümlədən, bir sıra monoqrafiyanın, dərslik və dərs vəsaitinin müəllifi olmuşdur: "Murtuz Ələsgərov pedaqoji və elmi fəaliyyəti ilə yanaşı, yüksək ixtisaslı kadrların hazırlanması üçün böyük qüvvə sərf etmişdir. Onun rəhbərliyi altında çox sayda gənc mütəxəssis alimlik dərəcəsi almışdır. O, yarım əsrdən artıq bir dövrü əhatə edən çoxşaxəli fəaliyyəti ərzində Azərbaycanda elmin və təhsilin inkişafına layiqli töhfələr vermişdir. Onun bir çox görkəmli hüquqşünasların yetişməsində xidmətləri vardır". O.Əsədov çıxışında onu da bildirdi ki, M.Ələsgərov fəaliyyəti dövründə Azərbaycan dövlətinin hüquqi bazasının möhkəm təməllər üzərində qurulmasına, ölkəmizdə parlament ənənələrinin təşəkkül tapmasına mühüm töhfələr verib. M.Ələsgərovun hüquqi dövlət quruculuğu sahəsində, həmçinin müstəqil Azərbaycanın ilk Konstitusiyasının hazırlanmasında müstəsna xidmətləri olub.

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini və İcra Katibi Əli Əhmədov çıxışında tanınmış ictimai-siyasi xadim Murtuz Ələsgərovun şəxsiyyətinə hər zaman hörmətlə yanaşdığını bildirdi. Murtuz Ələsgərovu bir ziyalı kimi səciyyələndirən xüsusiyyətlərə nəzər salaraq, onun Azərbaycan ziyalılarına xas olan xüsusiyyətləri özündə cəmləşdirdiyini diqqətə çatdırdı. Qeyd etdi ki, o, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparır, mücadilə edirdi. Murtuz Ələsgərovun bir alim kimi nüfuzu xalq hərəkatının daha da



yüksəlməsinə kömək edirdi: "M.Ələsgərov Ulu Öndər Heydər Əliyevin ən yaxın silahdaşlarından biri olmuşdu. O, müstəqil Azərbaycan tarixində yeri olan bir şəxsdir. Ulu Öndər Heydər Əliyevin ətrafında olan Murtuz Ələsgərovun böyük həyat təcrübəsi var idi. O, Yeni Azərbaycan Partiyası Sədrinin müavini idi. Onun Dahi Öndər Heydər Əliyevin ideyalarının yayılmasında əvəzolunmaz xidmətləri olub. Mübariz bir insan olan M.Ələsgərov Azərbaycanın müstəqilliyi uğrunda, Heydər Əliyevin ideyalarının qorunub-saxlanmasında da öz mübarizlik keyfiyyətini göstərib. O, daim mübariz insan olub. Murtuz Ələsgərov bu gün də onu tanıyanların qəlbində yaşayır. Onun övladları Azərbaycanın çiçəklənməsində Azərbaycan Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasətə töhfələrini verirlər".

Tədbirdə çıxış edən Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Murtuz Ələsgərovu Azərbaycan xalq hərəkatının generalların olduğunu bildirdi: "Bu sözü deməyə çəkinmirəm, xalq hərəkatında general yox idi. Onun general olması xalq hərəkatına təkan verirdi."

Əli Həsənov çıxışında Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişinin qarşısının alınmasına hesablanmış yaş senzi məsələsinin ortaya atıldığın bildirdi və qeyd etdi ki, həmin məsələ ilə bağlı xeyli deputat etiraz etmişdi: "Onlar arasında Arif Rəhimzadə, Eldar İbrahimov kimi ziyalılarımız var idi. Onlar parlamentdə müzakirə olunan ədalətsiz qərara qarşı mübarizə aparırdılar. İctimai dəstəyi isə Murtuz Ələsgərov verirdi. Həmin dövrdə Murtuz Ələsgərov ictimai-siyasi xadim kimi mövqeyini ortaya qoydu. Ona fiziki xəsarət də yetirmişdilər".

Onun çıxışında ictimai yük var idi, - deyən Əli Həsənov 100 illik yubileyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında rolu böyük olan insanlar bu gün necə xatırlanırsa, Murtuz Ələsgərovun da adı elə xatılanır və əbədi olaraq yaşayacaq: "Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi dövrdə ölkə üçün tarixi əhəmiyyət kəsb edən taleyüklü hadisələrin fəal iştirakçısı olan Murtuz Ələsgərov həmişə əsl vətəndaş mövqeyi nümayiş etdirmiş, respublikamızın ərazi bütövlüyü və suverenliyi uğrunda aparılan mübarizədə qətiyyət və əzmkarlıq göstərmişdir. Yeni Azərbaycan Partiyasının təsis edilməsi və formalaşmasına fəal şəkildə qoşulan Murtuz Ələsgərov ömrünün sonunadək partiyanın Sədr müavini vəzifəsini tutmuşdur".

Konfransda çıxış edən Azərbaycan Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Rusiya, Ukrayna və Gürcüstanın tanınmış elm xadimləri və hüquqşünasları çıxış edərək M.Ələsgərovun geniş ictimai-siyasi fəaliyyəti, şəxsi insani keyfiyyətləri barədə ətraflı danışdılar. Qeyd edək ki, beynəlxalq konfransda millət vəkilləri, elm, ictimaiyyət xadimləri və M.Ələsgərovun ailə üzvləri iştirak edirdilər.

Plenar iclas sona yetdikdən sonra konfrans bölmə iclasları ilə davam etdi.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Murtuz Ələsgərov - 90

# Milli dövlətçiliyizdə əvəzsiz xidmətləri olan ictimai-siyasi xadim

***Azərbaycanın müstəqillik tarixinə zəhməti, insanpərvərliyi, prinsipiallığı, ölkəmizin azadlığı uğrunda qətiyyətli mübarizəsi ilə adını yazan görkəmli dövlət xadimi Murtuz Ələsgərovun anadan olmasından 90 il ötür. O, Azərbaycanda demokratik-hüquqi dövlət quruculuğundakı xidmətləri və siyasi əqidəsi ilə respublikamızın tarixində silinməz iz qoyub. Böyük bir irs yaradan M.Ələsgərovun tərcümeyi-halı zənginliyi ilə səciyyələnir. Müasir müstəqil Azərbaycanın dövlətçilik tarixində böyük xidmətləri olan ictimai-siyasi xadim Murtuz Ələsgərov kiçik yaşlarından möhkəm iradəli, vətənpərvər ruhlu, xalqına və vətəninə bağlı, ədalətli insan kimi formalaşır, qanunların keşiyində durmaq, insanların hüquqlarını müdafiə etmək arzusu ilə yaşayırdı. Bu arzu onu 1945-ci ildə respublikanın ən mötəbər ali təhsil ocağı olan Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə gətirib çıxardı.***



1950-ci ildə bu fakültəni fərqlənmə diplomu ilə bitirən Murtuz Ələsgərov hüquq elmini daha dərindən mənimsəmək məqsədilə Moskvaya gedir. SSRİ Elmlər Akademiyasının Dövlət və Hüquq İnstitutunun aspiranturasına qəbul olunaraq, beynəlxalq hüquq sahəsində elmi araşdırmalara başlayır. Vətənə qayıdaraq Azərbaycan Dövlət Universitetində əvvəlcə dövlət-hüquq kafedrasında baş müəllim və dosent kimi çalışır. Beynəlxalq hüquq sahəsində ilk azərbaycanlı elmlər namizədi olan Murtuz Ələsgərov 1968-ci ildə Azərbaycan Dövlət Universitetində doktorluq dissertasiyası müdafiə edib və hüquq elmləri doktoru elmi dərəcəsi alıb. 1969-cu ildə isə, ona beynəlxalq hüquq ixtisası üzrə professor elmi adı verilib.

O, beynəlxalq hüquq sahəsində dünya miqyasında da tanınmış alimlərdən biri idi. Bu sahədə biliklərini daim genişləndirir, beynəlxalq konfranslarda, simpoziumlarda dərin məzmunlu məruzələrlə çıxış edirdi. Eyni zamanda, yarım əsrdən artıq bir dövrü əhatə edən çoxşaxəli, məhsuldar fəaliyyəti ərzində ölkəmizdə elmin və təhsilin inkişafına layiqli töhfələr verib. Onun yetirmələri bu gün ölkəmizin hüquq-mühafizə orqanlarında uğurla çalışırlar.

Murtuz Ələsgərovun onlarla dərslik və monoqrafiyası, 200-dən çox elmi əsəri çap olunub. Onun rəhbərliyi ilə namizədlik dissertasiyaları müdafiə edən gənc alimlər arasında Çin, Vyetnam, İraq, İran, Banqladeş və digər Afrika ölkələrinin vətəndaşları da var. Həyatının böyük hissəsi Bakı Dövlət Universiteti ilə bağlı olan Murtuz Ələsgərov 1993-1996-cı illərdə bu ali təhsil ocağının rektoru işləyib.

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkədə gərgin ictimai-siyasi proseslər cərəyan edirdi. O vaxtkı ölkə rəhbərliyinin səriştəsizliyi, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsinin başlaması, xarici müdaxilələr respublikanı, sözün əsl mənasında, böyük fəlakətlərlə üz-üzə qoymuşdu. Belə ağır bir dövrdə Azərbaycan xalqı, ölkənin qabaqcıl ziyalıları müdriklik göstərərək Dahi Şəxsiyyət, Ümummilli Lider Heydər Əliyevi hakimiyyətə dəvət etdilər. Əlbəttə, bu, həmin dövr üçün olduqca təhlükəli addım idi. Çünki Heydər Əliyev və Onun yaxın tərəfdarları daim təzyiqlərlə üzləşir, təqiblərə məruz qalırdılar. Azərbaycan xalqına düşmən olan bəzi qüvvələr də Heydər Əliyev şəxsiyyətindən açıq-aşkar çəkinir, hər vəchlə Ulu Öndərin yenidən hakimiyyətə gəlməsinin qarşısını almağa çalışırdılar. Amma xalqın güclü iradəsi bütün təhdidlərin qarşısını aldı və Heydər Əliyev Azərbaycanda hakimiyyətə dəvət olundu. Murtuz Ələsgərov həmin dövrdə və ondan sonrakı illərdə Ümummilli Lider Heydər Əliyevin sadiq silahdaşlarından birinə çevrildi.

O, 1990-cı illərin əvvəllərində Ulu Öndərin rəhbərliyi ilə yaradılan, bu gün regionun ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının formalaşdırılmasında və təşkilatlanmasında yaxından iştirak edirdi. Uzun müddət partiyanın Sədr müavini kimi fəaliyyət göstərən Murtuz Ələsgərov Heydər Əliyev ideyalarının reallığa çevrilməsi üçün var qüvvəsi ilə çalışırdı. Odur ki, Ümummilli Lider Heydər Əliyev onu Yeni Azərbaycan Partiyasının ideya və əqidəsinə sadiq, dönməz əsgəri adlandırırdı.

"Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktının müəlliflərindən biri olan Murtuz Ələsgərov öz amalı uğrunda mübarizə aparmaq əzminə malik bir ziyalı kimi xatırlanır. İctimai-siyasi xadim kimi başlıca istəyi isə ölkəmizdə beynəlxalq hüququn müstəqil subyekti olan suveren dövlətin qurulması, Azərbaycanın hüquqi-demokratik dövlət kimi bərqərar olması və inkişaf etməsi idi. Bu yolda o, əzmkarlıqla mübarizə aparır, heç bir təhlükədən, təqib və təzyiqlərdən qorxub-çəkinmirdi.

Murtuz Ələsgərov xalqımızın çətin anlarında, taleyüklü məsələlərin həllində dərin zəkasını, bilik və bacarığını ortaya qoyub, milli mənafeyin müdafiəsinə qalxıb. Beləliklə, o dövrün ağır imtahanlarından şərəflə çıxan Murtuz Ələsgərov Ulu Öndərin sədaqətli silahdaşlarından biri olaraq ömrünün sonunadək bu missiyasını ləyaqətlə yerinə yetirdi.

Öz elmi, ictimai-siyasi fəaliyyəti ilə insanlar arasında nüfuz qazanmış, fəal ziyalı mövqeyinə malik professor Murtuz Ələsgərov 1995-ci ildə I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib. Parlament fəaliyyəti dövründə ölkənin qanunvericilik bazasının yaradılmasında və möhkəmləndirilməsində yaxından iştirak edib. 1996-cı il oktyabrın 16-da Azərbaycan Respublikası Milli Məclisinin sədri seçilib və on ilə yaxın müddətdə bu vəzifəni layiqincə yerinə yetirib. O, respublikamızda qanunvericilik sisteminin konstitusion prinsiplər əsasında təkmilləşdirilməsinə önəmli töhfələr verib, həmçinin, hüquqi dövlət quruculuğu sahəsində, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində mühüm xidmətlər göstərib.

Murtuz Ələsgərovun xidmətləri layiqincə qiymətləndirilib. O, "İstiqlal" ordeni, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", Müstəqil Dövlətlər Birliyinin "Sodrujestvo" ordeni, Rusiya Federasiyasının "Dostluq" ordeni ilə, digər fəxri adlar və mükafatlarla təltif edilib.

Xalqına sədaqətlə xidmət etmiş görkəmli ictimai-siyasi xadim, Azərbaycan elminin və təhsilinin inkişafına böyük töhfələr vermiş alim-pedaqoq Murtuz Ələsgərovun əziz xatirəsi onu tanıyanların xatirəsində yaşayır və yaşayacaq.

### Millim Məclisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov: "Murtuz müəllim həm gözəl hüquqşünas, həm də dünya tarixinə dərindən bələd olan dəyərli ziyalı idi"

- Ulu Öndər Heydər Əliyevin xalq arasındakı nüfuzu, xalqın Ona olan inamı o dövrkü siyasi qüvvələri çox narahat edirdi. Belə bir vaxtda Murtuz müəllim yaş senzinin ləğv olunması ilə bağlı mitinqlərdə cəsarətlə çıxış edərək, heç nədən çəkinmədən Dahi Öndər Heydər Əliyevin hüquqlarını müdafiə edirdi. Ökədə baş verən mürəkkəb siyasi proseslər fonunda Ulu Öndər Heydər Əliyevin başçılığı ilə YAP tezliklə müxalifət partiyasından iqtidar partiyasına çevrildi. 1993-cü ilin iyununda Ulu Öndərin hakimiyyətə yenidən qayıdışı ilə Azərbaycan onu gözləyən bəlalardan tezliklə xilas oldu. 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu. Milli Məclisə ilk seçkilər keçirildi. Tezliklə hüquqi islahatların aparılması üzrə komissiya yaradıldı. Xüsusi vurğulamaq istəyirəm ki, ölkənin əsas sənədi - Konstitusiyanın hazırlanmasında və yeni qanunvericilik aktlarının qəbulunda Murtuz müəllimin təcrübəli hüquqşünas kimi böyük əməyi olmuşdur. Murtuz müəllimin qanunverici orqana sədr seçilməsi parlamentin işinə yeni ab-hava gətirdi. Ulu Öndərin rəhbərliyi ilə ölkədə aparılan islahatların Milli Məclisdə hüquqi bazanın yaradılması ilə yanaşı, aqrar sahəyə aid də həyati əhəmiyyətli qanunlar qəbul olundu. Parlamentin beynəlxalq əlaqələri daha da gücləndi. Qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində əməli addımlar atıldı. Murtuz müəllim həm gözəl hüquqşünas, həm də dünya tarixinə dərindən bələd olan dəyərli ziyalı idi. O, dünyada baş verən proseslərdən düzgün nəticə çıxarmağı bacaran təcrübəli siyasətçi idi. Heç də təsadüfi deyildir ki, müstəqilliyimizin möhkəmləndirilməsi üçün önəmli olan illərdə, məhz Murtuz müəllim Milli Məclisə rəhbərlik etmişdi. Onun əziz xatirəsi əqidəsinə sadiq ziyalı, gözəl insan, ictimai-siyasi xadim kimi Murtuz müəllimi sevənlərin yaddaşında daim yaşayacaqdır.

### Millət vəkili Musa Quliyev: "Murtuz Ələsgərovun ömrünün sonunadək bütün fəaliyyəti Heydər Əliyev siyasi kursu ilə bağlı olmuşdur"

- Murtuz müəllim çox fəal və mənalı ömür sürmüş, öz istedadı, intellekti, zəhməti və biliyi sayəsində ad-san qazanmış, bütün ömrünü həsr etdiyi doğma universitetində tələbəlikdən rektorluğa qədər şərəfli bir yol keçmişdir. Respublikanın adlı-sanlı hüquqşünaslarından biri olan professor Murtuz Ələsgərov hüquq elminin müxtəlif sahələrində, xüsusilə "Beynəlxalq hüquq", "Konstitusiya hüququ", "Dövlət hüququ" sahəsində keçmiş SSRİ məkanında nüfuzlu alimlərdən biri kimi tanınmışdır. Uğurlu elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, Murtuz müəllim həm də fəal ictimai xadim, maarifçi ziyalı kimi də uzun illər "Bilik" Cəmiyyətinin xətti ilə respublikamızın müxtəlif bölgələrində, idarə-müəssisələrində mühazirələr oxumuş, cəmiyyətimizin hüquqi-siyasi cəhətdən maarifləndirilməsində xidmətlər göstərmişdir. Professor Murtuz Ələsgərovun maarifçilik fəaliyyətinin bir istiqaməti də Azərbaycan Dövlət Televiziyasının "Beynəlxalq icmal" adlı çox populyar bir verilişində nüfuzlu ekspert kimi iştirakı ilə bağlıdır. 1988-ci ildə ermənilərin Qarabağda separatçılıq fəaliyyətinə qarşı hərəkat başlayanda, fəal ictimai xadim kimi professor Murtuz Ələsgərov da bu hərəkatın öncüllərindən biri kimi, dəfələrlə "Azadlıq" meydanında çıxışlar etmiş, xalqı respublikamızın ərazi bütövlüyü uğrunda mübarizəyə səfərbər etmişdir.

Müstəqil Azərbaycanın dövlətçilik tarixinin şərəfli səhifələrindən biri olan məşhur "91-lər hərəkatı"nın fəal üzvlərindən olan professor Murtuz Ələsgərovun ömrünün sonunadək bütün fəaliyyəti Heydər Əliyev siyasi kursu ilə bağlı olmuşdur. Ulu Öndər tərəfindən Yeni Azərbaycan Partiyasının yaradıcılarından biri olan Murtuz müəllimə böyük etimad göstərilmiş, o partiyamızın Sədr müavini seçilmiş, Ümummilli Lider hakimiyyətə qayıtdıqdan sonra isə Bakı Dövlət Universitetinin rektoru, I-III çağırış Milli Məclisin deputatı və Milli Məclisin sədri olmuşdur. Görkəmli ictimai-siyasi xadimin oğlu professor Fuad Ələsgərovun Murtuz müəllimlə vida mərasimində söylədiyi lakonik bir fikir atasının xarakteri və siyasi əqidəsini çox dəqiq ifadə edir: "Atam çox cəsarətli, mərd bir insan olub, prinsipiallığı ilə seçilib və bir yolda olub, onun seçdiyi yol Heydər Əliyev ideyalarının müəyyən etdiyi yoldur. Əlbəttə ki, Murtuz müəllimin övladları Heydər Əliyev ideyaları ətrafında tərbiyə olunub və bu ideyalara daim sadiqdir.

### YAP Siyasi Şurasının üzvü Şahlar Əsgərov: "Murtuz Ələsgərov Dahi Öndər Heydər Əliyevin ən yaxın silahdaşlarından olub"

- Murtuz müəllim uzun müddət Milli Məclisə sədrlik edib. Yeni Azərbaycan Partiyasının yaradıcılarından və əsasnaməsini yazanlardan biri olub. Murtuz Ələsgərov Dahi Öndər Heydər Əliyevin ən yaxın silahdaşlarından olub. Eyni zamanda, Murtuz müəllim Azərbaycan dövlətinin qanunvericilik bazasının yaradıcılarından biri idi". Murtuz müəllim onunla söhbətlərinin birində dedi ki, "6 prorektorumuz olacaq və istəyirəm, onların hərəsi bir bölgədən olsun. Yəni elə olmasın ki, bir bölgədən iki prorektor olsun". Onun bu addımı Ümummilli Lider Heydər Əliyevin xoşuna gəlmişdi.

Ədalətli insan idi. Kəsilən tələbələrə çox həlim yanaşırdı. İclaslarda həmişə deyirdi ki, "Məcburi köçkünü nə pula, nə də qiymətə görə universitetdən çıxarmaq olar. Şərait yaradın, uşaqlar oxusun və kursdan-kursa keçsinlər". Bunu rektorlarda çox nadir hallarda görmüşəm. Murtuz müəllimlə xarici səfərlərdə də olmuşam. Mehriban və qayğıkeş insan idi. Onun dövründə prorektor işləmişəm, həm də parlamentin sədri olduğu dövrdə komitə sədri olmuşam.

**ZÜMRÜD BAYRAMOVA**

# Bilik Fondu - azərbaycançılıq məfkurəsinin gerçək daşıyıcısı

*Qarşıya qoyulan vəzifələr Fond tərəfindən layiqincə yerinə yetirilir, o cümlədən, görülən hər bir iş öz səmərəli bəhrəsini verir*

***Məlum olduğu kimi, 2014-cü ilin 7 may tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı ilə Bilik Fondu fəaliyyətə başlayıb. Belə ki, fondun əsas fəaliyyəti ölkənin gəncləri və yeniyetmələri bütün əhəmiyyətli sahələr üzrə maarifləndirmək və bu istiqamətdə layihələr reallaşdırmaqdan ibarətdir. Artıq təsis olunmasından keçən 4 ildə Bilik Fondu ölkə gəncləri və ictimai rəyi arasında kifayət qədər populyarlıq qazanmış təşkilat olaraq, daha prioritet istiqamətlər üzrə planlar qurur, məqam və məramlarını daha geniş spektrda gerçəkləşdirmək məqsədini daşıyır.***



Ümumiyyətlə, istər regionda, istərsə də beynəlxalq arenada Azəraycan dövlətinin daxli və xarici siyasətinin mahiyyətini də ictimaiyyətə çatdırmaq yönündə fəaliyyətini aparan fondun uğurları davamlı şəkil almaqdadır. İstər milli-mənəvi, istər dini, istər tarixi, istərsə də digər sahələr üzrə keçirilən çoxsaylı tədbirlərdə, həyata keçirilən layihələrdə azərbaycançılıq məfkurəsi əsas olaraq götürülür, bu məfkurə dövlətçilik və onun qorunması, vətəndaşlıq faktoru, eləcə də, digər məqamları özündə birləşdirir. Məhz bu baxımdan, əsas məqsəd gənclərin və yeniyetmələrin, bütövlükdə isə, ictimaiyyətin müasir standartlara uyğun biliklərə və dünyagörüşünə yiyələnməsi, onların şəxsiyyət kimi inkişafının təmin edilməsi, onların bacarıqlarının, peşəkarlıq səviyyələrinin və dünyagörüşlərinin inkişafına dəstəyin göstərilməsi, sağlam həyat tərzi, ətraf mühitin mühafizəsinin təbliğidir ki, yarandığı dövrdən hazırkı günümüzədək bu kimi layihələrin hər biri uğurla həyata keçirilib. Ümumiyyətlə, Azərbaycanın dinamik inkişafı və dünya birliyinə inteqrasiyası ilə bağlı təhlillər, beynəlxalq, regional və ölkədaxili proseslər öyrənilərək ictimaiyyətə çatdırılıb və bu gün fondun tərəqqisi öz bəhrələrini verir.

Yeri gəlmişkən, bu günlərdə Bilik Fondunun Himayəçilik Şurasının növbəti iclası keçirilib və AMEA-nın prezidenti, akademik Akif Əlizadənin sədrliyi ilə keçirilən iclasda Bilik Fondunun Himayəçilik Şurasının üzvləri - Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov, mədəniyyət naziri Əbülfəs Qarayev, gənclər və idman naziri Azad Rəhimov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Prezident yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov, həmçinin, təhsil nazirinin müavini Firudin Qurbanov iştirak ediblər.

## Ölkədə aparılan sosial-iqtisadi və mədəni quruculuq proseslərinin mahiyyəti ictimaiyyətin nəzərinə çatdırılır

Fondun icraçı direktoru O.Səmədov Bilik Fondunun əsas mahiyyəti və həyata keçirdiyi çoxsaylı uğurlu layihələri ilə elmi-texniki, siyasi-ictimai, sosial-iqtisadi, ekoloji və humanitar biliklərinin artırılması, azərbaycançılıq faktoru zəminində milli-mənəvi, dini dəyərlərin təbliği, ekoloji təfəkkürün formalaşdırılması, Azərbaycan dövlətinin daxili və xarici siyasətinin, ölkədə aparılan sosial-iqtisadi, mədəni quruculuq proseslərinin mahiyyətinin ictimaiyyətə çatdırılması istiqamətində həyata keçirdiyi layihələr, maarifləndirici proqramlar üzrə təşkil olunan mühazirələr, elmi-praktik konfranslar və seminarlar, müzakirələr və təqdimatlar, sərgilər və müsabiqələr, bölgələrdə fəaliyyət göstərən Bilik Evlərində yerli gənclər üçün təşkil olunan təlim kursları və dərnəklər barədə geniş məlumat verib. Bir daha təsdiq olunub ki, Azərbaycan Respublikasının Prezidenti yanında fəaliyyət göstərən Bilik Fondu əldə edilən nailiyyətləri ilə nəhəng işlərə imza atıb.

## Fond vasitəsilə xalqımızın tarixi və mədəniyyəti, milli-mənəvi dəyərləri gənc nəslə daha yaxından tanıdılır

Bilik Fondunun Himayəçilik Şurasının üzvü, Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov da bu təşkilatın dördillik fəaliyyətini müsbət dəyərləndirərək, dövlətimizin başçısının Sərəncamı ilə təyin olunmuş şura üzvlərinin onlara göstərilən yüksək etimadı doğruldacaqlarına əmin olduğunu bildirib və qeyd edib ki, fond, qarşıdakı illərdə də ardıcıl səmərli işlər aparmaqla, öz töhfələrini verməkdə davam edəcək. Əli Həsənov, eyni zamanda, Bilik Fonduna dövlətin geniş ictimaiyyətə çatdırmaq istədiyi fikir və ideyaların sistemləşdirilməsi, milli təbliğatın forma və məzmun müxtəlifliyinin təmin olunması, şura üzvlərinin Bilik Fondunun paytaxt və bölgələrdə keçirdiyi tədbirlərə dəvət edilməsi, fond vasitəsilə xalqımızın tarixi və mədəniyyətinin, milli-mənəvi dəyərlərinin gənc nəslə daha yaxından tanıdılması, əhalinin maarifləndirilməsində kütləvi informasiya vasitələrinin imkanlarından daha geniş istifadə edilməsi, Azərbaycan reallıqlarının sosial şəbəkə istifadəçilərinin geniş auditoriyasına dəqiq və düzgün çatdırılması məqsədilə yeni maarifləndirici veb-saytın yaradılması ilə bağlı qiymətli tövsiyələrini verib.

Mədəniyyət naziri Əbülfəs Qarayev, gənclər və idman naziri Azad Rəhimov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, təhsil nazirinin müavini Firudin Qurbanov da Bilik Fondunun gələcək fəaliyyəti barədə fikir və mülahizələrini bölüşüb, rəhbərlik etdikləri sahələr üzrə təklif və tövsiyələrini səsləndiriblər. Qeyd edilib ki, xüsusilə, gənclərin Bilik Fondu vasitəsilə əlaqələndirilməsi, eləcə də, əhalinin maarifləndirilməsi istiqamətində yeni layihələr həyata keçiriləcək.

## Fondun yeni tərkibli şuranın himayəçiliyi altında ölkədə bilikli insan kapitalının formalaşmasında bundan sonra da fəal iştirak edəcək

Onu da bildirək ki, fondun Himayəçilik Şurasının sədri, AMEA-nın prezidenti, akademik Akif Əlizadə elmlə təhsilin inteqrasiyasında Bilik Fondunun fəal iştirakının təmin edilməsi, alimlərin gənclərlə canlı ünsiyyətə cəlb edilməsi, elmi turların və ekspedisiyaların təşkilinə dəstək göstərilməsi ilə bağlı məsələlərdən söz açıb, maarifləndirici layihələrdə AMEA institutlarının elmi kadr potensialından daha səmərəli istifadə edilməsinin vacibliyini diqqətə çəkib. Akademik, həmçinin, şura üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb və fondun yeni tərkibli şuranın himayəçiliyi altında ölkədə bilikli insan kapitalının formalaşmasında bundan sonra da fəal iştirak edəcəyinə əmin olduğunu bildirib.

Bütün bunlar isə, bir daha belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, Bilik Fondu əhalinin maarifləndirilməsi ilə bağlı qarşısına qoyulmuş vəzifələrin icrası istiqamətində fəaliyyətini daha da təkmilləşdirmək əzmindədir. Mühazirə və təlimlərin coğrafiyasının yerlərdən daxil olan müraciətlər və keçirilən sosioloji sorğular əsasında genişləndirilməsi, mövzu rəngarəngliyinin təmin edilməsi, dövlətin daxili və xarici siyasətinin, ölkədə aparılan sosial-iqtisadi, mədəni quruculuq proseslərinin mahiyyətinin ictimaiyyətə çatdırılması məqsədilə keçirilən maarifləndirici tədbirlərin keyfiyyətinin yüksəldilməsi, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi, 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi, Azərbaycan Ordusunun yaradılmasının 100 illiyi, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar ölkənin bütün bölgələri əhatə olunmaqla silsilə mühazirələrin, "dəyirmi masa" və seminarların, kitab təqdimatları, sərgi, müsabiqə və bilik yarışmalarının təşkili, bilik evləri şəbəkəsinin genişləndirilməsi, Azərbaycan həqiqətlərini əks etdirən nəşrlərin, elmi-kütləvi ədəbiyyat nümunələrinin hazırlanması işinə, müvafiq mövzularda sənədli filmlərin və sosialyönümlü videoçarxların çəkilişinə yaxından dəstək göstərilməsi, maarifləndirici fəaliyyətin sosial sifariş əsasında daha da təkmilləşdirilməsi məqsədilə həyata keçirilən, gerçəkləşdirilən hər bir layihə, eyni zamanda, belə deməyə əsas verir ki, ölkə Prezidenti Cənab İlham Əliyevin əhalinin maarifləndirilməsi, müxtəlif elm sahələri üzrə biliklərin artırılması, azərbaycançılıq məfkurəsi zəminində milli-mənəvi dəyərlərin təbliği, dövlətin daxili və xarici siyasətinin mahiyyətinin ictimaiyyətə çatdırılması ilə bağlı verdiyi tapşırıqları, bilavasitə Bilik Fondu tərəfindən layiqincə yerinə yetirilir, o cümlədən, görülən işlər öz səmərəli bəhrələrini verir.

*Rövşən NURƏDDİNOĞLU*

## Hərbi ekspert: "Görüş danışıqlarda dönüş nöqtəsi sayıla bilər"



"Düşənbədə MDB Sammiti çərçivəsində Azərbaycan Prezidenti cənab İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş danışıqlarda dönüş nöqtəsi sayıla bilər". Bunu SİA-ya açıqlamasında hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib. Onun sözlərinə görə, böyük təzyiqlərdən, Azərbaycanın tutduğu mövqedən sonra, cənab Prezident İlham Əliyevin Ermənistana ünvanladığı mesajlardan sonra təbii ki, Paşinyan artıq məcbur oldu ki, danışıqlar masasına otursun: "Hətta bu görüşdən sonra Paşinyan özünəməxsus şəkildə Azərbaycan Prezidenti haqqında bir neçə müsbət ifadələr söylədi. Təbii ki, bu haqda da mətbuatda yazılar dərc edildi. Paşinyan bu danışıqlara öz xoşu ilə deyil, Azərbaycanın sərt mövqeyi və xəbərdarlıqlarının nəticəsi olaraq, eləcə də beynəlxalq qurumların müəyyən çağırışları nəticəsində danışıqlara getməyə məcbur oldu. Düşünürəm ki, bu danışıqların özü belə onu göstərir ki, artıq Paşinyanın Qarabağ məsələsində müəyyən bir şəkildə fikri dönsün.

Ermənistanın yürütdüyü siyasət heç zaman müstəqil olmayıb. Onlar həmişə hakimiyyəti itirmək durumunda olanda Qarabağ faktorundan istifadə edirlər. Azərbaycan Silahlı Qüvvlərinin bugünkü vəziyyəti, ölkəmizin iqtisadi durumu, Azərbaycanın beynəlxalq geosiyasi arenada tutduğu mövqe bu gün Paşinyanı məcbur etdi ki, masa arxasında otursun və artıq Qarabağla bağlı danışıqlarda dönüş yaransın. Düşünürəm ki, bunun davamı olmalıdır".

## DİN: Binədəki qəzada 2 nəfər ölüb, 41 nəfər yaralanıb

DİN Xəzər rayonunun Binə qəsəbəsi ərazisində yol-nəqliyyat hadisəsi ilə bağlı məlumat yayıb. DİN-dən SİA-ya verilən məlumata görə, oktyabrın 1-də saat 14:00 radələrində Xəzər rayonunun Binə qəsəbəsi ərazisində qəsəbə sakini, əvvəllər məhkum olunmuş Əlixan Şirəliyev idarə etdiyi "Daewoo" markalı 160 saylı xətt avtobusunu qorunan keçiddə hərəkətdə olan elektrovoza vurub. Nəticədə sürücü və 42 sərnişini xəstəxanaya yerləşdirilib, onlardan Şakir Əliyev və Yusif Dadaşzadə orada ölüblər. Nəqliyyatda Baş Polis İdarəsi tərəfindən araşdırma aparılır.



# Azərbaycan sülh və sabitlik məkanıdır

*Prezident İlham Əliyev: "Biz özümüzü mümkün olan risklərdən, öz siyasətimizlə, o cümlədən, uğurlu xarici siyasətimizlə qoruyuruq"*

***Azərbaycan Parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda dövlətimizin başçısı İlham Əliyev bu məqamı xüsusi qeyd edib ki: "Biz özümüzü mümkün olan risklərdən isə, öz siyasətimizlə, o cümlədən, uğurlu xarici siyasətimizlə qoruyuruq. Eyni zamanda, dünyada təhlükəsizliyə töhfəmiz də getdikcə artır. Təkcə təhlükəsizliyə yox, biz təhlükəsizliyi böyük dərəcədə şərtləndirən insanlararası və dinlərarası dialoqa da böyük töhfə veririk.***

Təsadüfi deyil ki, bu gün Azərbaycan dünya miqyasında multikulturalizmin mərkəzlərindən biri kimi tanınır. İlk növbədə, bu siyasət bizə lazımdır. Azərbaycanda bütün xalqların və dinlərin nümayəndələri çox rahat, bir ailə kimi yaşayırlar. Eyni zamanda, bu siyasət dünyaya lazımdır. Çünki bu gün dinlərarası məsələlər getdikcə narahatlıq doğurur. Toqquşmalar, anlaşılmazlıq, ayrıseçkilik və ksenofobiya - bütün bunları biz dünyada görürük. Biz öz siyasətimizi ortaya qoyuruq, öz nümunəmizi göstəririk. Bakıda keçirilən bir çox beynəlxalq tədbirlər ən böyük beynəlxalq təşkilatlar, o cümlədən, BMT, UNESCO və digər təşkilatlar tərəfindən yüksək qiymətləndirilir".

Zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə, müxtəlif sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın mədəniyyətlərarası dialoq forumlarına, eyni zamanda, dini sammitlərə ev sahibliyi etməsi təsadüfi deyil. Hazırda mütərəqqi dünyada demokratik dəyərlərdən biri kimi qəbul edilən etnik, dini tolerantlıq və multikulturalizm Azərbaycan cəmiyyətinin nümunəvi normalarına çevrilib. Çoxmillətli və çoxkonfessiyalı dövlət kimi, Azərbaycan bu gün dünya birliyinə hərtərəfli inteqrasiya siyasəti həyata keçirir.

Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, bu termin nisbətən yeni olsa da, əsrlər boyu Azərbaycanda multimədəniyyətli cəmiyyətlər mövcud olub. Xalqlar arasındakı dostluq və həmrəylik bunun bariz nümunəsidir: "Biz bu gün də çalışırıq ki, öz təşəbbüsümüzlə regionda və dünyada gedən proseslərə müsbət təsirimizi göstərək. Təsadüfi deyil ki, Azərbaycan tərəfindən irəli sürülmüş bir neçə təşəbbüs, artıq həyatda öz yerini tapıbdır və bu təşəbbüslər ətrafında yeni imkanlar yaranır. Əlbəttə ki, bu, bizi çox sevindirir və bu, bizim məqsədimiz idi. Əlbəttə, mən bunu dəfələrlə demişəm və son on il ərzində bu siyasəti aparmışam ki, ilk növbədə, bizim bütün səylərimiz daxildə gedən proseslərin müsbət istiqamətdə davam etməsinə yönəlsin və biz bu istiqamətdə çox böyük uğurlara nail olduq".

Dövlətimizin başçısı İlham Əliyev daim çıxışlarında dünyanın ikili siyasətindən və onun yaratdığı problemlərdən bəhs edir, diqqəti Xocalı soyqırımına, Dağlıq Qarabağ müharibəsi zamanı həlak olan dinc əhalinin sayına, Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi terror hadisələrinə yönəltməklə erməni faşizminin bu gün də davam etməsinə göz yuman Qərb, Avropa dövlətlərinin, beynəlxalq təşkilatların müsəlman ölkələrinə qarşı ikili standartlardan yanaşmasının beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğunu bildirir. "Ermənistanda islamofobiya pik həddinə çatıb. Ermənistan çox çalışır ki, müxtəlif müsəlman ölkələri ilə əlaqələrini genişləndirsin. Onların riyakar və yalan sözlərinə inanmaq lazım deyil. Azərbaycanda müqəddəs məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz" söyləyən Prezident İlham Əliyev erməni faşistlərinin Azərbaycanın dinc vətəndaşlarına qarşı törətdikləri terrorları vəhşilik adlandırır.

Azərbaycan Parlamentinin 100 illiyi münasibətilə təntənəli iclasda da Dağlıq Qarabağ kimi problemlə üzləşən Azərbaycanın humanitar fəlakətlə də üzləşdiyini önə çəkən dövlətimizin başçısı İlham Əliyev uzun illərdir beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan torpaqlarının 20 faizinin hələ də Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğunu qeyd edib. Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağ və onun ətrafında yerləşən yeddi bölgəyə erməni işğalçı qüvvələri nəzarət edir, narkotik bitkilər yetişdirirlər. Eyni zamanda, Azərbaycan xalqına qarşı etnik təmizləmə aparılıb, ekoloji və mənəvi terror törədilib. Bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə salınıb. Bu kimi halların aradan qaldırılması üçün multikulturalizm konsepsiyasına yeni yanaşma və onun müasir cəmiyyətdə getdikcə daha böyük əhəmiyyət daşıması təbiidir.

Bir sözlə, Azərbaycanda bəşəri dəyərlərə bağlılıq bu ölkənin iqtisadi-sosial inkişafında daha aydın hiss olunur. Ölkəmizin ev sahibliyi etdiyi humanitar forumlarda da, qeyd edilir ki, belə tədbirləri millətlərarası dialoq adlandırmaq daha məqsədəuyğundur. Bu sahədə isə, Azərbaycanın böyük təcrübəsi vardır. Şərqlə Qərb arasında körpü olan Azərbaycan xalqların birlik və əməkdaşlıq əlaqələri üçün də əlverişli, sülh və sabitlik məkanıdır.

***"Səs" Analitik Qrupu***

## Ziyafət Əsgərov: "İstənilən halda Paşinyanın destruktiv bəyanatları qətiyyən qəbul oluna bilməz"



İstənilən halda Ermənistanın baş naziri Nikol Paşinyanın destruktiv bəyanatları qətiyyən qəbul oluna bilməz. Bunu Milli Məclisin sədr müavini Ziyafət Əsgərov Ermənistanın baş naziri Nikol Paşinyanın Düşənbədə Azərbaycan Prezidenti İlham Əliyevlə söhbətində yumşaq mövqe nümayiş etdirməsinə münasibət bildirərkən söyləyib.

Z.Əsgərov qeyd edib ki, N.Paşinyan yalnız daxili auditoriya üçün danışır: "Paşinyan Azərbaycanın gücünü bilir, Azərbaycanın Prezidentini də çox yaxşı tanıyır, onun hansı intellektə, gücə malik olduğunu da çox yaxşı bilir. Qarşıdakı seçkilərdə onun partiyasının qalib gəlib-gəlməyəcəyi bilinmir. Hesab edirəm ki, o, bu vəziyyətdən istifadə edərək daxili auditoriyanı öz tərəfinə çəkmək üçün müəyyən qədər xal yığmaq istəyir. Ancaq istənilən halda onun destruktiv bəyanatları qətiyyən qəbul oluna bilməz".

O əlavə edib: "Hər bir halda mövqeyimiz ondan ibarətdir ki, Azərbaycanın işğal olunmuş torpaqları azad olunmalıdır. Bu, müzakirə obyekti deyil. Nə qədər ki, Ermənistan bu işğalçılıq siyasətindən əl çəkməyib, bütün layihələrdən kənarda qalacaq, Ermənistanda vəziyyət indi olduğu kimi siyasi iflic vəziyyətində olacaq və Ermənistan bu vəziyyətdən heç zaman çıxa bilməyəcək. Amma hər halda gec deyil, onların fikirləşməyə vaxtları var".

## Azay Quliyev: "ATƏT Parlament Assambleyasının bütün iclaslarında Ermənistanın işğalçı mahiyyətini ifşa edirik və bundan sonra da edəcəyik"



"ATƏT Parlament Assambleyasının bütün iclaslarında Dağlıq Qarabağ məsələsini qaldırırıq, haqlı mövqeyimizi diqqətə çatdırırıq, Ermənistanın işğalçı mahiyyətini ifşa edirik və bundan sonra da edəcəyik". Bu fikri yap.org.az saytına Milli Məclisin deputatı, Azərbaycanın ATƏT PA-da nümayəndə heyətinin üzvü, qurumun vitse-prezidenti Azay Quliyev deyib. A.Quliyev bildirib ki, oktyabrın 3-dən 6-na kimi Bişkekdə ATƏT PA-nın payız sessiyası keçiriləcək və sessiya çərçivəsində Azərbaycanın mövqeyini və münaqişə ətrafında yaranmış hazırkı vəziyyətlə əlaqədar narahatlığını bir daha Assambleyanın üzvlərinin diqqətinə çatdıracağıq.

"Son günlər İrəvanda və Bakıda səfərdə olan ATƏT PA-nın prezidenti Corc Seretelenin münaqişə ilə bağlı bəzi təklifləri də var və çox güman ki, o təklifləri də Bişkekdə müzakirə etmək imkanımız olacaq. Ümumiyyətlə, Azərbaycan gec-tez öz torpaqlarını işğaldan azad edəcək. Buna heç kimin şübhəsi olmasın. Çünki beynəlxalq hüquq və ədalət bizim tərəfimizdədir. Azərbaycanın ərazi bütövlüyü bütün beynəlxalq təşkilatlar tərəfindən tanınır və BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə müdafiə olunur. Azərbaycanın həyata keçirdiyi siyasət, ordumuzun güclənməsi, Ali Baş Komandanın Dağlıq Qarabağ məsələsində ardıcıl, güzəştsiz və prinsipial mövqeyi və ən nəhayət, bölgədə cərəyan edən proseslər və bir sıra geosiyasi amillər torpaqlarımızın işğaldan azad olunması üçün yeni imkanlar yaradır"- deyə, A.Quliyev vurğulayıb.

## Ekspert: "Qeyri-neft ixracatında Azərbaycanın əsas ticarət tərəfdaşı Rusiyadır"



"Rusiya Azərbaycan üçün vacib tərəfdaşlardan biridir. Belə ki, Azərbaycanda qeyri neft ixracatının 35 faizi Rusiyanın payına düşür". Bu fikirləri İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov deyib. V.Bayramov bildirib ki, ölkəmiz 2017-ci ildə 1.5 milyard dollarlıq qeyri-neft məhsulları ixrac edib və onun da 35 faizi, yarım milyard dollardan artığı Rusiyanın payına düşür. Onun sözlərinə görə, Rusiya cari ilin 8 ayında da Azərbaycan qeyri-neft ixracatındakı mövqeyini qoruyub saxlayıb.

"Azərbaycanın 8 ay ərzində təxminən 1.1 milyard dollara yaxın qeyri-neft ixracatı olub ki, burada da Rusiya birinci, Türkiyə ikinci yerdə olub. Bu baxımdan deyə bilərik ki, qeyri-neft ixracatında Azərbaycanın əsas ticarət tərəfdaşı məhz Rusiyadır. Rusiya həm də Azərbaycanın ixrac etdiyi kənd təsərrüfatı məhsullarının təxminən 90 faizini alır. Bu da təbii ki, aqrar sektorun, eləcə də regionlarda yaşayan sahibkarların valyuta təminatı baxımından çox vacibdir. Nəticə etibarı ilə Rusiya aqrar ixracatdakı mövqeyini də qoruyub saxlamaqdadır"-deyə ekspert qeyd edib.

## Azərbaycan ilə Türkiyə arasında hərbi təhsil sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub



Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının Protokoluna əsasən, Türkiyə Respublikası Silahlı Qüvvələri Quru Qoşunlarının nümayəndə heyəti Bakıda səfərdədir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 2-də Türkiyənin nümayəndə heyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında olub. Görüşdə Azərbaycan tərəfindən xarici dil və tərəfdaşlıq mərkəzi, Türkiyə tərəfindən isə quru qoşunlarının dil məktəbi haqqında brifinqlər təqdim olunub. Həmçinin ölkələrimiz arasında hərbi təhsil sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Səfər oktyabrın 5-dək davam edəcək.

# Azərbaycan brendi olan “ASAN Xidmət” dünyaya nümunə olan modeldir

***Son illərdə dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər görülmüş, müvafiq hüquqi baza formalaşdırılmışdır. 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atıldı. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan “ASAN Xidmət” mərkəzləri yaradıldı. Artıq “ASAN Xidmət”in yaradılmasından 6 ildən çox zaman ötüb. Qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək “ASAN Xidmət” mərkəzlərinin vahid şəkildə idarə edilməsidir. Buraya xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının işinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir. Mərkəzlər dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edir.***




“ASAN Xidmət” mərkəzlərində vətəndaşlara 10 dövlət orqanı ilə yanaşı, özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 250-dən çox müxtəlif xidmətlər göstərilir. Regionlarda 10 səyyar “ASAN Xidmət” avtobusu və səyyar “ASAN Qatar” vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü ilin iyunundan etibarən təqribən 1 milyon 329 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib.

Qeyd edək ki, hazırda ölkədə 13 “ASAN Xidmət” Mərkəzi fəaliyyət göstərir. 2020-ci ildə “ASAN Xidmət” Azərbaycanı tam əhatə edəcək və hər bir Azərbaycan vətəndaşı “ASAN Xidmət”dən yararlana biləcək. 2020-ci ilə qədər “ASAN Xidmət” mərkəzlərinin sayı 20-yə çatdırılacaq. Bu ilin payızında Şəki və İmişlidəki regional mərkəzlər istifadəyə veriləcək. Mərkəzlərin hər biri 500 mindən çox əhaliyə xidmət göstərəcək. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, növbəti dövrdə daha 5 mərkəzin tikilməsi planlaşdırılıb. Bu istiqamətdə çox intensiv işlər aparılır.

## “ASAN XİDMƏT” VƏTƏNDAŞLARA XİDMƏTLƏRİ VAHİD MƏKANDAN GÖSTƏRİLMƏSİNİ TƏMİN EDƏN NADİR MODELDİR

“ASAN Xidmət” vətəndaşlara dövlət və özəl xidmətləri vahid məkandan göstərilməsini təmin edən nadir modeldir və e-hökumətin əhəmiyyətli tərkib hissələrindən biridir. Mərkəzlərin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulur. Xidmətlərin göstərilməsində innovativ metodlar vətəndaşlara vaxtlarına və vəsaitlərinə qənaət etməyə imkan verir. “ASAN Xidmət”də yeni ideyalar və innovativ metodların tətbiqi vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətini artırmağa xidmət edir. Əlbəttə, bütün bunların nəticəsidir ki, “ASAN Xidmət” mərkəzlərinə edilən müraciətlər gündən-günə artmaqdadır. Bu günədək 24 milyondan çox vətəndaş müraciəti qeydə alınıb.

“ASAN Xidmət” Birləşmiş Millətlər Təşkilatının 2015-ci il Dövlət Xidmətləri Mükafatına (United Nations Public Service Award 2015) layiq görülüb. Eyni zamanda, həmçinin, “ASAN Radio”, “ASAN Təlim-Tədris Mərkəzi” və ABAD Satış-Sərgi Mərkəzi fəaliyyət göstərir. Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza verilməsi prosedurunun sadələşdirilməsi, müasir informasiya texnologiyalarının tətbiqi ilə operativliyi və şəffaflığı təmin edən elektron viza sisteminin yaradılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti 2016-cı il iyunun 1-də “Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və “ASAN Viza” sisteminin yaradılması haqqında” Fərman imzalayıb. Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə elektron viza verilməsi üçün “ASAN Viza” sistemi 2017-ci il yanvarın 10-dan fəaliyyətə başlayıb. Hazırda “ASAN Viza” Portalı 7 dildə (Azərbaycan, ingilis, fransız, ispan, ərəb, fars və rus) fəaliyyət göstərir. Dövlət başçısının Fərmanı ilə yaradılan “ASAN Viza” sistemi, qısa müddət ərzində, ölkəmizə turist axınının artmasına şərait yaradıb.

Daha bir yenilik isə “ASAN Ödəniş” sistemi üzərindən viza verilməsi prosesidir. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycanın beynəlxalq hava limanlarında viza müraciəti prosesinin təmin edilməsi üçün “ASAN Ödəniş” terminallarından istifadə edilir. Terminallara inteqrasiya edilmiş “ASAN Viza” sistemi vasitəsilə əcnəbilər elektron müraciət formasını dolduraraq, viza rüsumunu terminaldan ödəyə bilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər vizaya dair müraciətlərinin nəticələrini də “ASAN Ödəniş” terminalından əldə edə bilirlər.

## “ASAN XİDMƏT” TƏCRÜBƏSİ AZƏRBAYCANIN BÖYÜK NÜFUZ QAZANMIŞ DÖVLƏT XİDMƏTLƏRİ MEXANİZMİ KİMİ DÜNYAYA YAYILIR

“ASAN Xidmət”in qazandığı uğurlar, qısa müddət ərzində, dünyanın müxtəlif ölkələrində maraqla qarşılanıb. “ASAN Xidmət” mərkəzləri təcrübəsinin bölüşülməsi məqsədilə bir sıra ölkələrlə İtaliya, Fransa, Əfqanıstan, İndoneziya, Koreya, Mərakeş, Monteneqro ilə Anlaşma Memorandumları imzalanıb. Anlaşma Memorandumu yaxın gələcəkdə üzv ölkələrdə “ASAN Xidmət” təcrübəsinin tətbiqinə imkan yaradır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi beynəlxalq əməkdaşlığı genişləndirmək məqsədilə Mərakeş, Belçika, Türkiyə, Amerika, Sinqapur və digər ölkələrdə dövlət xidmətləri sahəsində keçirilən konfrans və seminarlarda aktiv iştirak edib.

Bu günlərdə isə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Uqanda Respublikasının Dövlət Xidmətləri Nazirliyi arasında dövlət xidmətlərinin göstərilməsinin mütərəqqi mexanizminin yaradılmasına dair əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Memorandumun məqsədi Uqanda Respublikasında dövlət xidmətlərinin göstərilməsi sisteminin təkmilləşdirilməsi, bu sahədə idarəetmə bacarıqlarının artırılmasıdır. Sənəd Davamlı İnkişaf Məqsədləri və 2030 Gündəliyi kontekstində Afrika ölkələrinin inkişafı, nümunəvi idarəetmə və sosial-iqtisadi irəliləyiş baxımından xüsusi önəm daşıyır.

Bu gün deyə bilərik ki, Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü ilə yaradılan və BMT-nin dövlət xidmətlərinin göstərilməsi sahəsində ən nüfuzlu mükafatına layiq görülən “ASAN Xidmət” təcrübəsi Azərbaycanın böyük nüfuz qazanmış dövlət xidmətləri mexanizmi kimi dünyaya yayılır. Azərbaycan brendi olan “ASAN Xidmət” təcrübəsi inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr tərəfindən, mütəmadi olaraq, öyrənilir və təcrübədə tətbiq edilir. “ASAN Xidmət” modeli Albaniya, İtaliya, Estoniya, Makedoniya və digər Avropa ölkələri tərəfindən yüksək qiymətləndirilir.

İctimai xidmət sahəsində çox ciddi dönüş yaradan “ASAN Xidmət”, həmçinin, yeni ideyalar, innovasiyalar tətbiq etməklə vətəndaşlarımıza ən keyfiyyətli xidmətlər təklif edir. Azərbaycanı tanıdan və təbliğ edən milli brendimiz olan “ASAN Xidmət” Azərbaycanda yeni, müasir, mədəni, xalqımızın mentalitetinə xas olan dəyərləri təbliğ edir, onları təbliğ edir. Bir sözlə, “ASAN Xidmət” ölkəmizin ictimai həyatda böyük rol oynayır.

***ZÜMRÜD BAYRAMOVA***

## Gündüz İsmayılov: Ölkəmizdə dini ədəbiyyat və ləvazimatlar satan 42 dini mağazaya rəsmi icazə verilib



Azərbaycanda çap olunan dini ədəbiyyatın böyük hissəsi əsasən tərcümə olunanlardır. Ona görə də məqsədimiz yerli müəlliflərin sayını artırmaqdır. Xaricdən ölkəyə gətirilən dini ədəbiyyatın sayı azalıb. İndi əsas məqsəd azərbaycanlı müəlliflərin yazdıqları dini ədəbiyyatların sayını artırmaqdır. Bu istiqamətdə xeyli işlər görülüb. Əgər keçən il ölkədə çap olunan dini ədəbiyyatların yalnız 14 faizi yerli müəlliflərin idisə, bu il həmin rəqəm 23 faizə çatıb. Yenə də bu göstərici bizi qane etmir.

AZƏRTAC xəbər verir ki, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov jurnalistlərə açıqlamasında deyib. Gündüz İsmayılov qeyd edib ki, xaricdə hazırlanan dini ədəbiyyat həmin ölkənin həyat tərzini, onların dünyaya baxışını özündə ehtiva edir. Bu nöqteyi-nəzərdən dini ədəbiyyatın böyük əksəriyyəti yerli müəlliflər tərəfindən hazırlanmalıdır. Əvvəlki illərlə müqayisədə bu gün ölkədə çap edilməsi məqsəd kimi qarşıya qoyulan zərərli dini ədəbiyyatların sayı kifayət qədər azalıb. “Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin maliyyəsi hesabına 100-dən artıq adda dini ədəbiyyat ölkədə çap olunub. Dini ədəbiyyat və ləvazimatlar satan mağazalara davamlı olaraq nəzarət edilir. Bu proses bundan sonra da davam edəcək. Hazırda ölkədə rəsmi icazə verilən 42 dini mağaza fəaliyyət göstərir. Dini mağazalara icazələrin verilməsi proseduru davam etdirilir”, - deyə DQİDK-nın sədr müavini vurğulayıb.

# Erməni diversantı nələri etiraf etdi?

*Vova Vartanov: "Azərbaycan Ordusu erməni qoşunlarının hərəkət etdiyi, silah-sursat daşındığı yolu nəzarətə götürüb"*

**Azərbaycan Ordusunun işğalçı Ermənistanla cəbhə xəttində, xüsusilə, Naxçıvanda ard-arda əldə etdiyi hərbi zəfərləri erməni siyasi ekspertləri və hərbi mütəxəssisləri tərəfindən də etiraf olunmaqdadır. Bununla bağlı Ermənistanın "İrvanuk" nəşrinə müsahibə verən birinci Qarabağ savaşının iştirakçısı, işğalçı ölkənin xüsusi təyinatlı kəşfiyyat-təxribat qrupunun yaradıcısı, eləcə də, azərbaycanlılara qarşı xüsusi qəddarlığı ilə yadda qalan Vova Vartanov deyib. Erməni diversantının sözlərinə görə, Azərbaycanın Silahlı Qüvvələri, demək olar ki, cəbhənin bir çox istiqamətlərində vəziyyətə nəzarət etməklə yanaşı, həm də mühəndis-istehkam işlərini uğurla həyata keçirir və irəliləyir.**

### "Əslində, çox vəziyyət həyəcanlıdır, 100 faiz narahatlıq var"



Naxçıvan cəbhəsi barədə də fikirlərini bildirən Vartanov Ermənistan hakimiyyətinin bu bölgədə vəziyyətin dəyişməməsi barədə irəli sürdüyü iddiaları cəfəngiyyat adlandıraraq deyib ki, əslində, Azərbaycan Ordusu orada kifayət qədər irəliləyib, hətta hərbi məqsədlərlə istifadə edilən yollara nəzarəti öz üzərinə götürüb: "Naxçıvan cəbhəsinə nümayəndə heyəti aparanda, məni də dəvət etmədilər. Onlar yaxşı bilirlər ki, mən onlardan fərqli olaraq, reallığı danışacağam. Bəli, əslində, çox vəziyyət həyəcanlıdır, 100 faiz narahatlıq var. Azərbaycan Silahlı Qüvvələri öz mövqelərini irəli çəkdi, lakin bununla yanaşı, Yerevan-Meğri yolunu da nəzarətə götürdü. Halbuki bu yolu havaya pilotsuz təyyarələr qaldırmadan da artilleriya ilə vurmaq mümkündür".

"Yəni Azərbaycan Ordusu erməni qoşunlarının hərəkət etdiyi, silah-sursat daşındığı yolu nəzarətə götürüb", deyə qeyd edən erməni kəşfiyyatçısı bütün bunların ciddi narahatlıq yaratdığını vurğulayıb.

### "Azərbaycan Ordusu Zəngəzura gedən yolları nəzarətə götürüb"

Vova Vartanov Azərbaycan Ordusunun gələcəkdə böyük miqyaslı hərbi əməliyyatlara başlaması ehtimalı barədə də danışaraq, Areni kəndinin işğaldan azad edilməsi məsələsinə də toxunub. O, jurnalistin Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvanda hansı əraziləri azad etməsi sualını cavablandırıb: "Areni kəndini... Lakin mən bunu açıqlayıb, narahatlıq yaratmaq istəmirəm. Əgər vəziyyət sakitdirsə, hələ ki, problem yoxdur. Hazırda ara-sıra atəş səsləri eşidilir. Lakin gələcəkdə böyük miqyaslı hərbi əməliyyatlar başlayacaqsa, bu, ciddi problemlər yaradacaq. Çünki Azərbaycan Ordusu Zəngəzura gedən yolları nəzarətə götürüb".

Erməni kəşfiyyatçı vaxtında tədbirlərin görülməyəcəyi halda, aprel müharibəsində və Naxçıvan cəbhəsində uğradıqları məğlubiyyətdən də acı məğlubiyyətə düçar ola biləcəklərini istisna etməyib və baş verənlərdə Ermənistan hakimiyyətini, yüksək hərbi strukturlarını günahlandırıb: "Günah birmənalı olaraq, Müdafiə Nazirliyindədir. Müdafiə Nazirliyi Azərbaycanın istehkam-mühəndis işlərinə barmaqarası yanaşdı. Nəticəsi də ortadadır".

**Rövşən RƏSULOV**

## "Münaqişənin həlli ilə bağlı müvafiq addımlar atılmaqdadır"



"MDB Sammiti çərçivəsində Düşənbədə keçirilən görüşdən belə bir nəticə çıxarmaq olar ki, Nikol Paşinyanın bundan əvvəl verdiyi bəyanatlarda Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə danışıqlarda tərəf kimi iştirak etməsi məsələsi artıq aradan götürüldü". Bunu SİA-ya açıqlamasında politoloq Arzu Nağıyev deyib.

Onun sözlərinə görə, Düşənbə görüşünü Ermənistan və Azərbaycan arasında münaqişənin nizamlanması üzrə danışıqların yenidən başlanmasına bir istiqamət kimi dəyərləndirmək mümkündür: "Hər iki dövlətin güc strukturlarına, ümumiyyətlə, bu məsələ ilə məşğul olan qurumlara verilən tapşırıqlar bundan ibarətdir ki, onlar daim təmasda olacaqlar. Paşinyanın sosial şəbəkə vasitəsilə yaydığı bəyanatdan aydın olur ki, o, hətta qondarma rejimin rəhbərliyinə təmas xəttində tam şəkildə atəşkəsə nail olmaq üçün əlindən gələni etməsi tapşırığını verib. Bu da mühüm amildir. Yəni artıq Ermənistan-Azərbaycan danışıqlarında Azərbaycan diplomatiyasının da istədiyi kimi, müvafiq addımlar atılmaqdadır". O qeyd edib ki, Prezident İlham Əliyevlə Paşinyanın Düşənbə görüşünün nəticəsi kimi Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqların Azərbaycan və Ermənistan arasında davam etdirilməsinə nail olundu.

## Səhiyyə Nazirliyi: Binə qəsəbəsində baş vermiş qəzada yaralananların müalicəsi davam etdirilir



Oktyabrın 1-də Xəzər rayonu, Binə qəsəbəsində 160 saylı sərnişin avtobusu ilə qatarın toqquşması nəticəsində yaralananların müalicəsi davam etdirilir. Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, yaralıların 12 nəfəri hazırda Sabunçu rayonundakı 3 nömrəli şəhər klinik xəstəxanasında müalicə alır. Onlardan beşi reanimasiya şöbəsindədir, üç yaralı üzərində cərrahiyə əməliyyatı aparılıb, iki nəfərin vəziyyəti ağırdır.

Yaralıların altısı isə Kliniki Tibbi Mərkəzə yerləşdirilib. Onlardan ikisinə tibbi yardım göstərilərək evə buraxılıb. Yaralıların 3-nün vəziyyəti orta ağır, birinin vəziyyəti isə ağırdır. Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutuna üç nəfər gətirilib, onlardan biri artıq evə buraxılıb.

## "Paşinyan İlham Əliyev tərəfindən idarə olunan dövlət başçısı kimi qəbul olunacaq"



"Düşənbədə MDB Sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdə bir neçə vacib məqam var. Bu vacib məqamlardan biri - bütün dünya gördü ki, Nikol Paşinyan sabit mövqeyi olmayan adamdır. Hər kəs cənab İlham Əliyevi də çox gözəl tanıyır. Bilirlər ki, onun davranış manevrası və siyasi xarakteri necədir. Hamı başa düşdü ki, İlham Əliyev yaranmış vəziyyətdən necə lazımdırsa istifadə edəcək". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib. Onun sözlərinə görə, əksər dünya liderlərinin gözündə, beynəlxalq ictimaiyyətin gözündə Paşinyan İlham Əliyev tərəfindən idarə olunan bir dövlət başçısı kimi qəbul olunacaq: "Diqqət çəkməli məsələlərdən biri də ATƏT-in Minsk Qrupunun sıradan çıxması məsələsidir. Yəni Azərbaycanın və Ermənistanın baş naziri arasında birbaşa əlaqə olacaqsa, deməli bu elə etimad tədbiridir. Belə bir məqamda Anjey Kaspişikin missiyasının genişləndirməsinə, qoşunların təmas xəttində o insidentlərin tədqiqi mexanizminin qurulmasına ehtiyac qalmayacaq. ATƏT-in Minsk Qrupu təxminən 2014-cü ildən etibarən qoşunların təmas xəttində insident mexanizmlərinin qurulması üzərində çox ciddi işləyirdi. 2016-cı ilin aprel döyüşlərindən sonra isə onun üzərində lap ciddi işlədi. İndi birdən-birə bəlli oldu ki, Paşinyan etimad tədbirini dəyişdirir. Yəni Kaspişikin missiyasının və qoşunların təmas xəttində insidentlərin tədqiqi mexanizmlərinin qurulması əvəzinə birbaşa otağına telefon qoydurur. Hansı ki, o telefona yarım saat ərzində Azərbaycan Prezidenti İlham Əliyev cavab verə bilər və yaxu da cənab İlham Əliyevin zənginə yarım saat ərzində Nikol Paşinyan cavab verəcək. Bu iki məsələ ən vacib məqamlardır.

Ermənilər dildə və təbliğatda çox şey deyə bilərlər. Amma bəlli oldu ki, onların şüurunda Azərbaycan güclü xalqdır, dövlətdir. Ən diqqət çəkən məsələlərdən biri Ermənistanın daxilinə təsiridir. Yəni gördülər ki, Paşinyan cənab İlham Əliyevə nə lazımdırsa onları dedi. Burada əlavə məsələlər də var. Bu razılaşma MDB-nın Düşənbə Sammiti çərçivəsində oldu. Bu razılaşmadan öncə Paşinyan Rusiya prezidenti Vladimir Putinlə görüşdü. Görünür Paşinyana Putin təzyiq edib. Eləcə də Putin Bakıya səfər etdi və Azərbaycan Prezidentinə yüksək səviyyədə münasibəti var idi".

## Bakı metrosunun yeni stansiyasını fərqləndirən cəhət nə olacaq?



Bakı Metropoliteninin yeni tikilən stansiyasında yeni və fərqli texnologiyalar tətbiq ediləcək. SİA-nın məlumatına görə, bu barədə açıqlamasında Bakı Metropoliteni Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib. B.Məmmədov bildirib ki, paytaxtın Ceyhun Səlimov küçəsində tikilməkdə olan Bənövşəyi xəttin 3-cü stansiyasında (B3) yeni və fərqli texnologiyalar tətbiq ediləcək: "Bu stansiyanın gətirəcəyi daha bir yenilik elektrik təchizatı ilə bağlı olacaq. Burada elektrik yarımstansiyası inşa olunur. Onun ərazisində 8 ədəd generatordan ibarət dizel-generator stansiyası qurulacaq. Bununla da Bənövşəyi xəttin elektrik enerjisinə fövqəladə ehtiyacları ödənəcək". O əlavə edib ki, gələcəkdə tikiləcək bütün yeni xətlərdə eyni qayda ilə ehtiyat enerji qida mənbələri olacaq. Qeyd edək ki, yeni stansiyanın tikintisi üzrə işlərin 2019-cu ilin sonuna və yaxud 2020-ci ilin əvvəlinə başa çatdırılması gözlənilir.

## Azərbaycanın energetika naziri Rusiyada səfərdədir



Energetika naziri Pərviz Şahbazov Rusiya Federasiyasının energetika naziri Aleksandr Novakın dəvəti ilə "Rusiya enerji həftəsi" adlı Beynəlxalq Forumda iştirak üçün Moskvaya səfər edib. Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirin oktyabrın 3-də "Rusiya enerji həftəsi"ndə "Energetikanın tənzimlənməsində effektivlik: ölkələrin ümumi və fərqli yanaşmaları" mövzusunda çıxışı nəzərdə tutulub.

Oktyabrın 3-7-də keçiriləcək tədbirdə Rusiya Prezidenti Vladimir Putinlə yanaşı, bir çox ölkələrin yüksək səviyyəli hökumət nümayəndələri, yerli və beynəlxalq enerji şirkətlərinin rəsmiləri iştirak edəcək. Pərviz Şahbazov ,həmçinin "Simens" şirkətinin "Rusiya enerji həftəsi"ndə təşkil olunan "Enerji sisteminin gələcəyi" adlı tədbirinə də qatılacaq. Qeyd edək ki, Azərbaycanla Rusiya arasında energetika, neft-qaz sahələrində sıx əlaqələr mövcuddur və bu əməkdaşlıq yeni layihələrlə möhkəmləndirilir.

# Ailə həkimi institutu nəyə xidmət göstərəcək?



***Artıq uzun illərdir Azərbaycanda ailə həkimi institutunun yaradılması ilə bağlı müxtəlif müzakirələr aparılır, fikirlər səsləndirilir. Milli Məclisin Səhiyyə komitəsinin payız sessiyasında keçirilən ilk iclasında yenidən gündəmə gələn məsələ cəmiyyətin marağına səbəb olub. Hətta ölkəmizdə "Ailə həkimi haqqında" qanun layihəsinin hazırlanmasının da gündəmdə olduğu bildirilir. Ümumiyyətlə ailə həkimi necə olmalıdır və ölkəmizdə ailə həkimi institutunun nə vaxtdan etibarən fəaliyyət göstərməsi nəzərdə tutulur?***

Mütəxəssislərin fikrincə, ailə həkimi ali tibbi təhsil almış, əhaliyə (cinsindən, yaşından və xəstəlik növündən asılı olmayaraq) ilkin profilli tibbi-sosial yardım göstərməyə hüquqi səlahiyyəti olan mütəxəssislərə deyilir. Başqa sözlə, ailələr bütün xəstəliklərini ailə həkimlərinə etibar edə bilərlər. Ailə həkiminin vacibliyi odur ki, xəstə sağlamlığı ilə bağlı müxtəlif həkimlərə müraciət etsə də, sonra məsləhət üçün mütləq şəkildə öz ailə həkiminə qayıdır və həmin təyinatlara baxaraq öz fikrini bildirir. Ailə həkimi öz xəstəsini hər zaman nəzarətdə saxlamalı, və onun keçirdiyi bütün xəstəliklər barədə məlumatlı olmalıdır. Bir sözlə, ifadə etsək deyə bilərik ki, ailə həkimi adından da göründüyü kimi etibarlı bir şəxs olaraq ümumilikdə ailəyə xidmət edir.

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev bildirib ki, ailə həkimi, ilk növbədə, kənd və rayon yerlərində yaşayan əhaliyə ilkin tibbi yardım göstərmək, tibbi maarifləndirmə işi aparmaq, lazım gələrsə onların şəhər klinikalarında yerləşdirilməsi, konsultasiyalar alması və s. işlərin həyata keçirilməsinə xidmət etməlidir.

## "Əhalinin tibbi xidmətlərə əlçatanlığı yaxşılaşdırılacaq"

Onun sözlərinə görə, ailə həkimi institutu insanların sağlamlığının təmin edilməsində və cəmiyyətin sağlam tərzdə inkişafında böyük rol oynayacaq: "Bu, əhalinin tibbi xidmətlərə əlçatanlığının yaxşılaşdırılması, hər bir ailənin öz həkimi olması və rahat şəkildə tibbi xidmətlərə çıxış əldə etməsinə şərait yaradacaq. Bildiyiniz kimi hazırda icbari tibbi sığorta pilot layihəsi başa çatmaq üzrədir və gələn ildən onun bütün ölkə ərazisində tətbiq olunması gözlənilir. İcbari tibbi sığortanın daha səmərəli olması üçün Azərbaycanda ailə həkimi institutu yaradılmalıdır".

## "Ailə həkimi haqqında" qanun özündə nələri ehtiva edir?

Milli Məclisdə "Ailə həkimi haqqında" qanun layihəsinin hazırlandığını deyən M. Quliyev söyləyib ki, layihədə ailələrin öz həkimlərini seçməsi ilə bağlı qaydalar yer alıb: "Burada ailələrin sayına görə maksimum hədd tətbiq edilməyəcək. Bu da insanlara həkim seçimində sərbəstlik verəcək. Yəni bir həkimi istənilən sayda ailə seçə biləcək. Amma hər ailə öz həkimini yaşadığı ərazidən seçməlidir. Məlumat üçün bildirək ki, inkişaf etmiş bir çox ölkələrdə artıq ailə həkimi metodu tətbiq edilir. Azərbaycanda da bir neçə regionda Səhiyyə Nazirliyinin dəstəyi ilə ailə həkiminin tətbiqi ilə bağlı pilot layihələr həyata keçirilib. Azərbaycanda bu metodun tətbiqi ilə bağlı lazımi baza mövcuddur, amma qanun hələ ki qəbul olunmayıb. Layihənin hazırlanmasında Fransa və ABŞ təcrübəsindən istifadə olunur".

## "Ailə həkimi institutunun yaradılması xəstəliklərin və xəstələrin sayının azalmasında böyük rol oynaya bilər"

Milli Məclisin Səhiyyə komitəsinin üzvü Kamilə Əliyeva isə bildirib ki, dünyanın əksər yerlərində, aparıcı ölkələrində ailə həkimləri və onların statusunu tənzimləyəcək qanunvericilik aktları var: "Azərbaycanda da ailə həkimi institutun yaradılması bir çox xəstəliklərin vaxtında müalicə olunmasında, xəstəliklərin və xəstələrin sayının azalmasında, onların sağlamlara qovuşmasında böyük rol oynaya bilər. Bu gün ölkəmizdə də insanlarımızın sağlamlığının təmin edilməsi və qorunması istiqamətində bir sıra dövlət əhəmiyyətli addımlar atılmaqda və öz effektini verməkdədir. Düşünürəm ki, bunun davamı kimi, ailə həkimi institutunun yaradılması da çox məqsədəuyğun və məntiqi addım olardı".

## "Ölkədə sahə xidməti göstərənlərin arasında ailə həkimləri fəaliyyət göstərir "

Səhiyyə Nazirliyinin baş pediatrı Nəsib Quliyev söyləyib ki, Azərbaycanda bu gün sahə xidməti göstərənlərin arasında ailə həkimləri fəaliyyət göstərir: "Ölkəmizdə hər zaman sahə həkimləri fəaliyyət göstərib və bu gün də var. Belə ki, evə ilk çağırışa sahə həkimi çağırılırdı ki, bundan sonra sahə həkimləri də xəstələri lazımı yerə yönləndirirdi. Xəstə lazım olanda evdə, lazım olanda isə stasional müalicə alırdı".

N. Quliyev qeyd edib ki, hazırda ailə həkimi funksiyasını həyata keçirən sahə həkimləri stasionar deyil, ambulator yardım göstərirlər: "Sahə həkimləri insanların sağlamlığını idarə edir ki, onlar xəstəxanaya düşməsinlər. Stasionar xidmətlə məşğul olan həkimlər hamının həkimidirlər onlar ailə həkimi adlandırılmırlar. Bir həkim öz ərazisi üzrə yaşayan yüzlərlə insana xidmət göstərə bilər".

## "Ailə həkimi institutunun tətbiqi üçün Azərbaycanda kifayət qədər kadr var"

Ailə həkimi institutunun daha rassional institut olduğunu deyən baş pediatr söyləyib ki, ailə həkimləri nəzarət etdikləri ailənin bütün üzvlərini diqqətdə saxlayır, bütün xəstəliklərini bilir və xəstəni lazımi sahəyə yönləndirə bilirlər: "Ailə həkimi institutu ailədə olan bütün genetik xəstəlikləri, pis vərdişləri, mikro mühiti biləndən sonra həkimlərin işi rahatlaşacaq, xəstəliklərin miqdarı azalacaq ".

N.Quliyev qeyd edib ki, ailə həkimi institutunun tətbiqi üçün Azərbaycanda kifayət qədər kadr var: "Növbədə iş gözləyən həkimlərimiz var ki, bu institutun tətbiqi onların da işlə təmin olunmasına kömək olacaq. Bildiyiniz kimi Azərbaycan Tibb Universitetində "Ailə həkimi" kafedrası var ki, burada bu sahə üzrə təcrübəli mütəxəssislər yetişdirilir ".

***Nailə Məhərrəmova***

# Ölkədə rəqabətqabiliyyətli qeyri-neft məhsulları istehsalı stimullaşdırılacaq

***Azərbaycan Prezidenti İlham Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi sosial-iqtisadi siyasət ölkəmizin davamlı inkişafının təmin olunmasında həlledici rol oynayır. Reallaşan dövlət proqramları, investisiya layihələrinin uğurla icrası Azərbaycan Respublikasında qeyri-neft sektorunun sürətli və rəqabətədavamlı inkişafının təmin olunması ilə nəticələnib. Uğurla həyata keçirilən dövlət proqramları və bu sahədə görülən tədbirlər qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına təkan vermişdir.***

Həyata keçirilən iqtisadi islahatlar nəticəsində bu sektorun potensial imkanları genişlənib və yeni istehsal sahələri yaradılıb. Bütün bunlarla yanaşı, gübrələrlə təchizat sistemi yaradılıb, inşaat, turizm, anbarlar istifadəyə verilib, yollar çəkilib, modern müəssisələr istismara verilib, biznes layihələri üzrə güzəştli kreditlər ayrılıb və s. digər tədbirlər görülüb. Şübhəsiz olaraq, bütün bunlar dünyanın bir sıra nüfuzlu iqtisadi mərkəzləri tərəfindən də rəğbətlə qarşılanır və Azərbaycanın iqtisadi inkişafı yüksək qiymətləndirilir. Bu gün Azərbaycan brendi ilə xarici bazarlara çıxarılan qeyri-neft sektoru məhsulları - şərab, meyvətərəvəz, çay, şirələr, mineral sular, tekstil və digər məhsulları dünya bazarlarına çıxarılır. Respublikamızdan ixrac edilən məhsullar alıcıların geniş marağına səbəb olub. Artıq gələcəkdə "Made in Azerbaijan" adı altında istehsal və ixrac olunan məhsullar dünya bazarında daha yüksək yerini tutacaq. Bütün bunlar dövlət başçısı tərəfindən bu sahəyə ayrılan diqqətdir.

Azərbaycan Prezidenti İlham Əliyevin "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" 19 sentyabr tarixli Sərəncamı ölkədə rəqabətqabiliyyətli qeyri-neft məhsulları istehsalının stimullaşdırılmasına, onun xammal bazasının yaxşılaşdırılmasına, idxalı əvəz edən yeni istehsal sahələrinin yaradılmasına böyük imkanlar yaradacaq. Bununla yanaşı, ixrac imkanlarının genişləndirilməsinə dövlət dəstəyinin artırılması, habelə, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrindən irəli gələn tədbirlərin icrasının təmin edilməsi məqsədilə imzalanan Sərəncama əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti Sənəddə qeyd olunanlar barədə təklifləri və normativ-hüquqi akt layihələrini üç ay müddətində hazırlayıb, Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcəklər. Sərəncamda ölkədə istehsal edilməyən yeni rəqabətqabiliyyətli məhsullar istehsalının təşkili üçün "Azərbaycanda ilk" ("First in Azerbaijan") investisiya təşviqi mexanizmi, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının dəstəklənməsi məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi mexanizmi, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin istehsal fəaliyyətinin dəstəklənməsi üçün onların kadr potensialının artırılmasına dövlət dəstəyi mexanizmi və s. barədə təklifləri və normativ-hüquqi akt layihələri hazırlanacaq. Ölkədə istehsal olunmayan və daxili istehsalda istifadə edilən xammalın idxalına gömrük güzəştlərinin tətbiqi, eləcə də, mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsi, ölkə iqtisadiyyatına birbaşa investisiyalar cəlb edilməsinin dəstəklənməsi məqsədilə "Azərbaycana sərmayə" ("Invest in Azerbaijan") mexanizmlərinin tənzimlənməsi Qaydası" və s. nəzərdə tutulub.

Sərəncamda qeyd olunur ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Azərbaycana birbaşa xarici investisiyaların cəlb edilməsi potensialının təkmilləşdirilməsi və investisiya cəlbediciliyinin daha da artırılması məqsədilə ölkədə alternativ maliyyələşməyə açıq layihələr və yeni investisiya imkanları haqqında məlumatları əks etdirən, həmçinin, investisiya layihələrini yerli və xarici investorların maliyyələşdirməsi üçün əlverişli platforma olan "www.enterpriseazerbaijan.com" internet portalının istifadəyə verilməsini təmin etsin. Ölkəmizdə ardıcıl həyata keçirilən tədbirlər dövlət başçısının iradəsi və göstərişləri ilə reallaşıb. Bütün bunlar isə, qeyri-neft sektorunun daha sürətli inkişafına hesablanıb.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Siyasiləşmiş QHT-lər köhnə şakərlərindən əl çəkmirlər

*Onlar məğlubiyyət sindromunda olduqlarının fərqində deyillər*

QHT

***Özlərini müxalifət adlandıran və xaricdən maliyyələşən qüvvələrlə siyasiləşmiş QHT-lər eyni yerdən-mərkəzdən idarə olunurlar desək, yanılmarıq. Çünki dəfələrlə şahidi olmuşuq ki, xaricdə olan havadarları dağıdıcı müxalifətə siyasiləşmiş QHT-lər vasitəsi ilə pullar ötürürlər ki, ölkəmizdə xoşagəlməz bir vəziyyət yaratsınlar.***

Əslində, siyasiləşmiş QHT-lər ifadəsinin özü birbaşa bu sektor üçün arzuolunmaz və xoşagəlməz məqamdır. Məlum olduğu kimi, QHT-lər vətəndaş cəmiyyəti subyektləri olaraq ictimai təşkilatlardır və onların fəaliyyətində siyasi elementlərin olması, birbaşa və ya dolayısı ilə hansısa siyasi qüvvələrə xidmət etmələri məsələsi qanunla yasaqdır. Təəssüflər olsun ki, bu sahədə qeyd olunan neqativlər var və bu kimi hallar indi də davam etməkdədir. Elə bu günlərdə bir qrup siyasi partiya və ictimai təşkilatın "Məhsul" stadionunda "Qarabağa azadlıq" şüarı ilə keçirilən mitinqdə olduğu kimi. Azərbaycanın işğal edilmiş ərazilərinin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpa edilməsi tələbi ilə keçirilən aksiyanın məqsədi Qarabağın azad edilməsi üçün ictimai fəallığı ən yüksək səviyyəyə çatdırmaqdır? Mitinqdə belə bir fikir səslənib ki, "hakimiyyət və müxalifət Qarabağ məsələsində birləşməlidir və hakimiyyətdən işğal edilmiş ərazilərin azad edilməsi üzrə radikal addımlar atmağı tələb etməliyik".

Görünür, mitinqin təşkilatçısı olan "Qarabağ" komitəsi bu ilin yayında kütləvi aksiyaların, elmi konfransların, sərgilərin və s. keçirilməsi ilə özlərinin ictimaiyyətin diqqətində saxlamaq məqsədilə təsis edilib. Bir də, bu gün bu problemlə Azərbaycan iqtidarı dərindən məşğul olur və mitinqdə bu yöndə iqtidara ünvanlanan iradlar tam yersizdir.

Sözügedən məsələ ilə bağlı Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov bildirib ki, stadionda keçirilən bir mitinqdə Dağlıq Qarabağ problemi ilə bağlı münasibət formalaşdırmaq olmaz: "Bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı zəruri addımları atır. Həm danışıqlarda, həm də ordunun gücləndirilməsində, yeni silahlarla təchiz olunmasında lazımi işlər görülür. Elə Bakıda keçirilən son iki hərbi parad buna daha bir nümunədir. O cümlədən, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, müharibə veteranlarına, şəhid ailələrinə diqqət və qayğı, bilavasitə Dağlıq Qarabağ münaqişəsinə olan bir münasibətdir".

Siyavuş Novruzovun sözlərinə görə, Dağlıq Qarabağ adı altında hər hansı bir mitinq keçirmək və bundan istifadə etmək bu gün yersiz addımdır: "Bugünkü mitinqin mahiyyəti ondan ibarətdir ki, bir qrup insan öz ətrafına adam toplaya bilmədiyi üçün Azərbaycanın taleyüklü məsələsini, yaxud hər bir Azərbaycan vətəndaşını düşündürən bir məsələni ortaya atmaqla orada insanları bir yerə cəmləyib öz maraqlarını həyata keçirməyə çalışır. Həmin qruplar Avropadan, başqa yerlərdən çağırışlar edirlər. Bu gün çağırış edən şəxs, birinci növbədə, öz övladını gətirər, təqdim edər və deyər ki, Vətənin müdafiəsi üçün gəlib, müharibə başlayarsa, istənilən an iştirak edə bilər. Yalnız bundan sonra o insanlar xalq qarşısında hansısa fikir irəli sürə bilər. Onlar müxtəlif siyasətlərə xidmət edən və bununla xalqın heysiyyəti ilə oynamağa cəhd göstərən insanlardır. Deyirlər ki, guya mitinqə gəlməyən Qarabağı istəmir. Bunlar hamısı yanlış fikirdir. Bütün Azərbaycan xalqı işğal olunmuş ərazilərimizin azad edilməsini istəyir. Əgər bu insanların Dağlıq Qarabağla bağlı belə ürəkləri yanırsa, onda Avropa küçələrində, Ermənistan səfirliklərinin, beynəlxalq təşkilatların qarşısında nümayiş keçirsinlər, Xocalı soyqırımı ilə bağlı müxtəlif təbliğat materialları yaysınlar, etirazlarını bildirsinlər. Ancaq əksinə, həmin insanlar orada Azərbaycan əleyhinə iş aparırlar, Azərbaycanın daxilində isə Dağlıq Qarabağ məsələsini qaldırırlar. Qarabağ mitinqi kiçik bir futbol stadionuna sığan mitinq ola bilməz. Qarabağ mitinqi bütün Azərbaycandır, bütün xalqdır, dünya azərbaycanlılarıdır. Bu baxımdan da, bu cür bəhanələrdən istifadə edərək Qarabağ adı altında öz çirkin məqsədlərini yerinə yetirmək istəyən insanların çağırışlarına heç kəs uymayacaq. ".

Göründüyü kimi, ümumiyyətlə, zaman-zaman inkişaf etmiş Azərbaycan dövlətinin əleyhinə iş aparan siyasiləşmiş QHT-lər var. "QHT-lər haqqında qanuna" görə, qeyri-hökumət təşkilatları siyasi proseslərdə iştirak edə, siyasi tələblərlə çıxış edə bilməz. QHT-lər vətəndaş cəmiyyətinin inkişafına töhfə verməlidirlər. Təəssüflər olsun ki, Azərbaycanda zaman-zaman müxtəlif adlar altında xoşagəlməz hadisələr yaratmaq istəyən qruplar olub və bu gün də onlar iş başındadırlar. Amma onlar heç vaxt öz istəklərinə çatmayıb və bundan sonra da çatmayacaqlar.

***Rəfiqə HÜSEYNOVA***

# Paşinyan Düşənbə görüşünü bir şans kimi qiymətləndirməlidir



***Sirr deyil ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın Paşinyanın timsalında sərgilədiyi separatçı mövqe son zamanlar təkcə Azərbaycanda yox, həm də dünyada ciddi narazılıq yaratmışdır. Çünki N.Paşinyanın işğal edilmiş ərazilərdə yaradılan separatçı rejimin danışıqlar prosesində tərəf olmasını gündəmə gətirməsi sülh prosesinin üzərindən birdəfəlik xətt çəkirdi. Hətta onun BMT tribunasında sərsəm fikirlər səsləndirməsi bu qurumun Təhlükəsizlik Şurasının qətnamə və qərarlarına qarşı açıq hörmətsizlik xarakteri daşıyırdı. Yerevanın əvvəlki bəyanatlarına zidd olaraq, Ermənistan baş naziri Dağlıq Qarabağ bölgəsini Ermənistanın tərkib hissəsi kimi nəzərdən keçirməyə çalışırdı. Bu qəbuledilməz mövqe beynəlxalq hüququn norma və prinsiplərinə qarşı olmaqla bərabər, həmçinin ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə aparılan sülh prosesini təhlükə altına alırdı.***

Məhz bütün bunlar isə, Ermənistanın əsl niyyətini ortaya qoyurdu. Yəni Ermənistan danışıqlar vasitəsilə münaqişənin həllini deyil, Azərbaycan ərazilərinin qanunsuz işğalının davam etdirilməsinin vacib olduğunu nümayiş etdirirdi. Əlbəttə ki, belə vəziyyətdə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hərbi müstəvidə həll edilməsi ehtimalı getdikcə artırdı. Elə bundan qorxan erməni cəmiyyətində, siyasi dairələrində Paşinyanın Qarabağ mövqeyinə qarşı açıq çıxışlar başlandı. Mətbuatda, sosial şəbəkələrdə çıxış edən erməni ictimai nümayəndələri həyəcanlı tərzdə Qarabağ məsələsində Azərbaycanın bütün istiqamətlər üzrə üstünlüyünün artdığını və əsasən də, Paşinyan iqtidarı sayəsində ölkə daxilində vəziyyətin çox kəskinləşdiyini bildirirdilər. Bütün bunların fonunda isə Paşinyan həm beynəlxalq ictimaiyyətdən, həm də ölkə daxilindən Qarabağ məsələsində ciddi təzyiqlər gördü və münaqişə ilə bağlı radikal mövqeyində ciddi səhvlərə yol verdiyini də anladı. Bu hal Düşənbədə MDB-nin Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Nikol Paşinyan arasında baş tutan söhbət fonunda özünü qabarıq büruzə verdi.

Xatırladaq ki, söhbət Ermənistan baş nazirinin təşəbbüsü ilə baş tutub. Paşinyan Azərbaycan Prezidenti ilə görüşündən çox məmnun olduğunu gizlətmir. O bildirib ki, Prezident İlham Əliyev onda müsbət təəssürat doğurub. O, Azərbaycan Prezidenti ilə bir sıra məsələlər üzrə razılıq əldə etdiklərini də bildirir. Bunlar sərhəddə sülh şəraitinin qorunması, dialoq və danışıqlar prosesinə sadiqlik və operativ rabitənin yaradılmasıdır: "Bu razılaşmaların əldə olunmasını çox vacib hesab edirəm. Azərbaycan Prezidenti İlham Əliyev savadlı insandır. Əhəmiyyətlidir ki, İlham Əliyevlə əlaqə yaratmaq barədə razılaşdıq, ATƏT-in Minsk Qrupunun üzvlərinə rəsmi məlumat verilib ki, Ermənistan və Azərbaycan rəhbərliyi arasında daimi rabitənin yaradılması haqqında razılaşmışıq". Onun sözlərinə görə, bunun texniki cəhətdən necə icra ediləcəyi, hələlik, aydın deyil. Lakin bu, vəziyyətə daha operativ nəzarət etməyə imkan yaradacaq.

Beləliklə də, hadisələr göstərdi ki, Paşinyan əvvəlki mövqeyindən geri çəkilir və bütün təmaslar əvvəlki kimi Bakı və Yerevan arasında olacaq, danışıqlar prosesinin formatı dəyişilməz qalacaq. Yəni münaqişə tərəfləri olaraq danışıqlar məhz Ermənistan və Azərbaycan arasında aparılır. Paşinyanın əvvəlki mövqeyindən fərqli mövqe ortaya qoyması danışıqlar, prosesi üçün müsbət şərait formalaşdırır. Belə olan halda, təbii ki, Azərbaycan da münaqişənin dinc həlli yoluna sadiqliyini qoruyacaq, danışmaq mümkün olan yerdə gücdən istifadəyə zərurət görməyəcək.

Əlbəttə ki, baş verənlərin fonunda Paşinyan Düşənbə görüşünü bir şans kimi qiymətləndirməli, bundan münaqişənin dinc yolla həlli üçün fürsət kimi istifadə etməli, hər şeydən öncə, erməni xalqını uzun illərin ağır bəlasından xilas etməlidir. Digər tərəfdən, Ermənistanın yeni rəhbərliyi qəbul etməlidir ki, onların ölkəni iqtisadi baxımdan inkişaf etmiş və firavan dövlətə çevirməklə bağlı erməni xalqına verdiyi vəd sülh, mehriban qonşuluq münasibətlərinin qurulması, ən əsası, qonşuların ərazi bütövlüyünə hörmət etmədən mümkün deyil. Azərbaycan isə, açıq bəyan edir ki, sülh, sabitlik və qarşılıqlı faydalı regional əməkdaşlığın alternativi yoxdur. Münaqişənin həlli isə yalnız beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əsasında mümkündür.

***"Səs" Analitik Qrupu***

# "Rusiya regionda Ermənistana ən böyük təsir edən dövlətdir"

***"Rusiya prezidenti Vladimi Putin ölkəmizə səfəri çərçivəsində bildirdi ki, Rusiya ilə Azərbaycan arasında ikitərəfli xoş münasibətlər və qarşılıqlı etimad var. Təbii ki, bu əlaqələrin əsasını Ümummilli Lider Heydər Əliyev qoyub". Bunu SİA-ya Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin (TOHGMİB) sədri, hərbi ekspert Emin Həsənli deyib.***

Onun sözlərinə görə, Ulu Öndərin dünya siyasətinə böyük bir baxışı olub: "Bu siyasəti yeni çalarlarla cənab Prezident İlham Əliyev uğurla davam etdirir. Bu gün Azərbaycan əməkdaşlıq bir məkanıdır. Amma vaxtilə Azərbaycanı qarşıdurma məkanına çevirmək istəyirdilər. Bu gün Suriya, İraq kimi dövlətlər qarşıdurma məkanına çevrilib. Lakin Azərbaycan dövləti İranla Rusiya arasında nəqliyyat dəhlizlərinin keçdiyi bir yerdir. Xəzərlə bağlı hüquqi status məsələsi həll olundu və Azərbaycanın mənafeyləri nəzərə alındı. Eləcə də Avropa ilə Asiya arasında olan dəmir yolu dəhlizi ölkəmizdən keçir. Bu gün Azərbaycan müstəqil və balanslı siyasət aparır. Bu bizim böyük bir nailiyyətimizdir.

Son dövrlərdə Azərbaycana mütəmadi səfərlər - Almaniya kansleri Angela Merkelin, İtaliya prezidentinin, eləcə də Azərbaycan Prezidentinin Avropaya, Rusiyaya səfəri və s. hamısı ölkəmizin nə qədər güclü bir siyasət aparmasının nəticəsidir. Bu gün Rusiya dövləti ilə bizim siyasi, iqtisadi, hərbi əməkdaşlığımız var. Amma Ermənistan dövləti sürüşkən siyasət aparır. Ermənistan müstəqil dövlət olmadığına görə başqa dövlətlər tərəfindən də hörmət görmür. Azərbaycan dövlətinə isə bütün dövlətlər hörmətlə yanaşır. Bu gün bizim əhalimizin böyük bir hissəsi Rusiyada yaşayır. Həmçinin bizim Rusiyadan gözləntilərimiz də var. Çünki rəsmi Moskva BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biridir. Bir sözlə regionda Ermənistana ən böyük təsir edən dövlətdir".



SİYASİ RAKURS

# Vətənlə yanaşı, özlərini satanlar

*Yaxud onlar şəxsi maraqlarına görə, özlərini cinsi azlıq nümayəndəsi kimi də təqdim edə bilərlər*

***Artıq uzun müddətdir ki, Avropa və Qərb ölkələrində özlərini "siyasi mühacir" kimi göstərərək, müxtəlif xarici təşkilatlar qarşısında nökərçilik edənlər sosial şəbəkələr vasitəsilə "keçəl min oyun eylər" kontekstindən kənara çıxmayaraq, siyasi hoqqabazlıqlarını davam etdirməkdədirlər. Təki, ortaya bir mövzu atılsın və onlar da həmin mövzunu elə "fırladıb", "hakimiyyətin günahı" kimi zorla ictimai rəyə sırısınlar. Necə deyərlər, belə bir "siyasət" onların qanlarına hopub, özü də necə..!***

## "Ələkçilərə" günaşırı "qıl" verənlər

Əslində, yalnız oralarda deyil, elə buralarda da onlara, yəni "ələkçilərə" günaşırı olaraq "qıl" verənlər mövcuddur - özlərini "ana müxalifətin liderləri" kimi təqdim edən kərimlilər, hacılılar və s. Ancaq əsas tərəflər yenə də Avropa ölkələrində və erməni lobbisinin dəstəyi ilə küçələrdə, avtomobil salonlarında, kafe və barlarda, striptiz klublarda açıq-aşkar sirk tamaşaları göstərənlərdir. Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Vidadi İsgəndərli, Emin Milli... Siyahı isə dartıldıqca uzanacaq, əslində. Beləliklə, indi Fransadan Hollandiyaya, Almaniyadan Belçika və İsveçə qədər əksər Avropa ölkələrində məskunlaşmış həmin üzdəniraq "həmvətənlərimiz"i yalnız bir şey düşündürür - Azərbaycanı, bu



ölkənin rəhbərliyini, dövlət xadimlərini necə aşağılayıb, onun barədə mənfi rəy, imic formalaşdıraq ki, erməni lobbisinin təşəkkürünü və xüsusilə, maddi dəstəyini alaq.

## Siyasi fahişəliyin aşkar etirafı: "...Öz cinsiyyətimi də dəyişdirməyə, gey, leyzbiyan, transseksual belə, olmağa hazıram"

Bu arada bir qısa haşiyə çıxmaq istərdim. Hazırda Avropa ölkələrinin birində yaşayan və bu kimi ünsürlərə qarşı bacardığı qədər mübarizə aparan vətən övladımızdan biri sosial şəbəkədə onlardan birinin sitatını mənə xatırlatmışdı. Sitat isə təxminən bu cür idi: "Azərbaycanda hakimiyyətin dəyişilməsi üçün, hətta öz cinsiyyətimi də dəyişdirməyə, gey, leyzbiyan, transseksual belə olmağa hazıram"

Bax, budur sözün bitdiyi yer və simasızlığın, Vətənə, dövlətə nifrətin, özü də erməndən betər erməniçiliyin əsas təməli. Və yaxşı olardı ki, beləleri



bir də heç vaxt Azərbaycana geri dönməsinlər. Nə torpaq, nə də millət belələrini əsla bağışlamaz!

Bu gün vaxtilə AXCP sədri Əli Kərimlinin bu ölkəyə göndərdiyi emissarlarının xətti ilə Almaniyaya "siyasi mühacir" adı altında pənah aparanlar çox keçmədən onun oradakı adamların-



dan, yəni erməni lobbisinin təmsilçilərindən təlimat və maddi dəstək alaraq, Azərbaycan dövlətinə qarşı səlib yürüşünə çıxıblar.

## Əli Kərimlinin Avropa emissarları

Bu gün məsələ yalnız Orduxan Teymurxan və yuxarıda adları çəkilən digər "cinsiyyətlərini dəyişməyə hazır olan" ünsürlərdə deyil, bayaq da qeyd etdiyimiz kimi, onlar arasında digərləri də cəlb edilir, yəni "verbovkalanır". Misal üçün, bu gün Hollandiyada siyasi hay-həşir, şivənlik salmaq, təlxəklik etmək üzrə çempionluq adını qazanan Orduxan Teymurxan kimilərdən biri də Camal Seyidlidir. Məlumat üçün qeyd edək ki, Almaniyaya "siyasi mühacir" adı altında üz tutana qədər Camal Seyidli Ə.Kərimlinin "mitinq qəhrəmanları"ndan biri olub. AXCP sədrinin təşkil etdiyi mitinq və digər siyasi aksiyaların fəal iştirakçısı kimi tanınan C.Seyidlinin Almaniyaya siyasi mühacir kimi getməsinin, cəbhə sədrinin Avropa emissarı olmasının da maraqlı tarixçəsi var. Belə ki, sözügedən şəxs radikal siyasi mübarizədən, ən əsası isə, onun kimilərinin qabağa verilib, onlardan vasitə kimi istifadə edildiyindən bezərək, daha yaxşı yaşayış sevdası ilə Avropaya üz tutmağı qərarlaşdırır. Lakin C.Seyidli onu da yaxşı bilir ki, əlini-qolunu sallaya-sallaya Avropaya üz tutub, siyasi sığınacaq ala bilməz. Bəs necə etməli? Bu zaman ona radikalların liderlərinin böyük "faydası" toxunur. Daha doğrusu, hər zaman olduğu kimi, bu dəfə də öz bazasından şəxsi və maddi maraqlar naminə istifadə etməyi bacaran "liderlər" öz hiylələrini işə salaraq, Seyidliyə "dəyərli" məsləhətlərini verirlər... Həmin məsləhətlərin isə nədən ibarət olduğunu artıq hər kəs yaxşı bilir.

## "Qarabağa azadlıq" şüarı ilə qondarma mitinq keçirənlər bilməlidirlər ki, Azərbaycan dövləti



## Qarabağın işğaldan azadlığı üçün hətta onların çox sevdikləri Nikolu dizə gətirir!

Yaxud bir neçə gün öncə, "Məhsul"da "Qarabağa azadlıq" şüarı altında şəxsi mənfəət güdənlərin utancverici və rüsvayçı mitinqlərinin şahidlərinə çevrildik. Bəli, məhz utancverici! Çünki bu cür şüar altında siyasi və şəxsi məqsədləri güdmək, sadəcə, heç bir ləyaqətə, mənəviyyata sığmır. Bu gün erməni mediası həmin mitinqi ələ salır. Bu yazıların hansı mahiyyət daşıdığını isə bilən bilir.

Avropadakı siyasi fahişələr də, məhz bu mitinqdən öz xeyirlərini güdür, hələ utanmaz-utanmaz növbəti eyniadlı şüar altında xalqı aksiyalara cəlb etməyə cəhd göstərirlər. Ancaq unudurlar ki, bu gün onlardan fərqli olaraq, Azərbaycan dövləti əməli işlər görür, Qarabağın işğaldan azadlığı üçün, hətta onların çox sevdikləri Nikolu (Paşinyanı-R.R.) dizə gətirir. Məgər bunu Düşənbədəki sammitdə görmədilərmi? Gördülər, sadəcə, uzun illərin siyasi korları onlara sərf etməyən hər bir şeyə "görmürük" deyib, yaxa qurtarırlar...

Ümumiyyətlə, bu kimi ucuz, cılız, mənfur və heç bir insani keyfiyyətlərə aidiyyatları olmayan ünsürlər gec, ya da tez anlamalı olacaqlar ki, tutduqları yol, əslində, onların siyasi fahişəliklərini daha qabarıq fonda canlandırır. Ancaq nə gec, nə də tez olmasına baxmayaraq, etdikləri hər bir xəyanətə görə, mütləq cavablarını alacaqlar. Bax, buna 100% əmin ola bilərlər!

***Rövşən RƏSULOV***

---



**Təhmasib Novruzov**

## Hamam köhnə, tas təzə

***Ötən həftə bir qrup insan meydana çıxıb "Qarabağa azadlıq" şüarı ilə mitinq keçirdi. Bir azərbaycanlı və bir qarabağlı kimi, heç şübhəsiz, belə şüarla aksiya keçirilməsini müsbət hal hesab edir və dəstəkləyirəm. Dəfələrlə edilən müraciətlərə baxmayaraq mitinqə qatılmayacağımı desəm də, bir kənardan onu seyr etməyə içimdəki anlaşılmaz duyğular məni vadar elədi. Əvvəl-əvvəl onu deyim ki, beş-altı partiyanın birləşib keçirdikləri mitinqlərdən fərqli olaraq, məhz Qarabağ uğrunda mübarizəyə qoşulmaq istəyində olub, mitinqə gələnlərin sayının kifayət qədər çox olması məni sevindirdi. Amma...***

Amması mitinqdə çıxış edənlərin tam əksəriyyətinin içindən gələnləri oxuyub, çox məyus oldum. İstər-istəməz yadıma 1988-89-cu illərin meydanları düşdü. Qarabağ hadisələri yenicə başlayanda, meydanlara toplaşanların bir məqsədi var idi: hayların arzularını gözlərində qoymaq! Bu mübarizə yolunda səsimizi eşitməyən, daha doğrusu, eşitmək istəməyən Sovet İmperiyası rəhbərliyinə çevirdik üzümüzü. Nəticədə, bu imperiyadan da qurtulduq və müstəqil dövlətimizi yaratdıq. Çünki xalq, gec də olsa, anladı ki, Moskvanın əlaltısı olan haylarla Moskvanın rəhbərliyi altında mübarizənin əhəmiyyəti yoxdur. Qarabağ uğrunda savaşla yaranıb, formalaşan milli azadlıq hərəkatı, Azərbaycan müstəqil olandan sonra dönüb oldu siyasi hakimiyyət uğrunda mübarizə aparan siyasi qurum. Özü də elə bir siyasi qurum ki, hakimiyyət eyforiyasına qapılıb, torpaqların işğalına şərait yaratdı ki, təki hakimiyyətə gəlsin. Bu barədə yazanda, danışanda məni qınayanlar da olur. Amma həmyaşıdlarım yaxşı bilir ki, həmin illərdə mən hərəkatın ən ön sıralarında gedənlərdən olmuşam və gördüyüm bu siyasi iyrəncliklər qarşısında susmağı özümə o zaman da rəva görməmişəm, indi də rəva görmürəm. "Beş-altı kənd verək, A.Mütəllibovu istefaya məcbur edək" deyənlər də həmin siyasiləşmiş hərəkatın liderlərindən idi. Dağlıq Qarabağın şəhər və kəndlərində formalaşıb, Ağdam və Şuşa təşkilatları ilə birləşən yerli dayaq dəstələrini ləğv edib, bütün əlaqələri üzən də həmin liderlər oldu. Çox faktlar sadalamaq olar. Amma bu iki fakt kifayətdir ki, Qarabağ uğrunda mübarizə şüarı ilə meydana atılanların sonradan Qarabağa, bütövlükdə Azərbaycana necə xəyanət etdiklərini anlayaq. Xülasə, indiki mitinqdə də həmin ssenarinin cizgilərini oxudum və həddən artıq məyus oldum. Sonradan bəzi sosial şəbəkələrdə mitinqin yekunları ilə əlaqədar təşkilatçıların fikirlərinə qulaq asdıqdan sonra isə, mənim üçün çətin olsa da, bu yazını yazmağa məcbur oldum. Açıq-aşkar deyirlər ki, əsas məqsədləri xalqı meydanlara toplamaq, ümumxalq birliyi (?) yaratmaq, sonra da birləşən xalqı (?) hakimiyyətə qarşı yürüşə yönləndirəcəklərmiş. "Yenə həmin dalğa, həmin koordinat!" Bu dalğa, bu koordinatla bir dəfə millət ayağa qalxdı, nəticədə, meydan pəhləvanlarını kreslolara əyləşdirdi, özləri isə yurdlarını itirib, məcburi köçkün oldular. Görəsən, indiki dalğanın nəticəsində millətə hansı zərbələri vurmağı planlaşdırırlar? Bu adamlara deyiləcək sözüm yoxdur. Çünki nə desək də, gönlərinə dəyib geri qayıdacaq. Amma belələrinin toruna, pafoslu çıxışlarına aldanan zavallı xalqıma təkcə bunu demək istəyirəm: Qarabağ uğrunda savaş hər birimizin borcudur və bu, şərəf məsələsidir. Fəqət Qarabağ "kartı" ilə qumar oynayanlarla ehtiyatlı olun. Sonda uduzan sadə camaat olur. Çalışın uduzmayasınız. Nəhayət, I Qarabağ savaşı dövründə həm ermənilərlə, həm də onları himayə edən imperiya rəhbərləri və onların Azərbaycandakı qulları ilə savaşırdıq. Amma bu gün Müstəqil Azərbaycanda hakimiyyətə bu ad altında hücuma keçməyi planlaşdırmaq, ən azı milli xəyanətdir. Necə deyərlər, hamam köhnə olsa da, tas təzədi. Köhnə hamamın tasını da köhnə hesab edib, özünüzü qaynar suda yandırmağınızı məsləhət görmürəm...

# Robert Koçaryan revanşa hazırlaşır?

***Ermənistanın ikinci prezidenti Robert Koçaryan siyasi fəaliyyətini fəallaşdırıb. Bu barədə erməni mətbuatı yazır. “Hraparak” nəşrində qeyd edildiyinə görə, onun komandasında siyasi güclərlə əsas görüşləri oğlu Sedrak Koçaryan, KİV və jurnalistlərlə isə Viktor Soqomonyan, oliqarxlar heyətilə isə Ovik Abramyan görüşür. Görüşlərin, əsasən, “Nasional” mehmanxanasında keçirildiyi bildirilir. Qeyd olunur ki, Robert Koçaryan strateji məsələləri həll edir və daha nüfuzlu fiqurlarla görüşür. Bəzi məlumatlara görə, artıq onun Serj Sarkisyanla iki dəfə görüşdüyü məlum olub. Koçaryanın sabiq nazirlərdən Vardan Ayvazyan, Karen Çşamarityan və başqaları ilə də danışıqlar apardığı məlum olub.***



### “Hraparak”: “Toxunulmazlıq məsələsi Konstitusiya Məhkəməsinə göndəriləcək, bunun ardınca isə parlament ətrafında cərəyan edəcək hadisələr dayanır”

Bildirilir ki, Koçaryan kitab yazır və bu baxımdan, daha çox ictimai rəy arasında görünməkdə maraqlı deyil, lakin həmin kitabın prezentasiyasından sonra qəti şəkildə ortaya çıxmaq qərarındadır. “Hələlik, komandada gözləmə situasiyasıdır, ən əsası, Kassasiya Məhkəməsinin qərarı baxımından”, yazan “Hraparak”, həmçinin qeyd edir ki, son vaxtlar belə ehtimal etmək mümkündür ki, o, həbs olunmayacağı ilə bağlı zəmanət alıb: “Toxunulmazlıq məsələsi Konstitusiya Məhkəməsinə göndəriləcək, bunun ardınca isə parlament ətrafında cərəyan edəcək hadisələr dayanır”.

O da bildirilir ki, Koçaryan komandası parlamentin buraxılmasına qəti olaraq qarşı çıxır: “Koçaryan ilk gündən deyirdi ki, siyasətə vəzifə üçün geri dönmür: parlament gücləri ilə razılığa gəlmək və hər hansı güclü xadimi baş nazir seçərək, ölkədə tüğyan edən xaosa son qoymaq lazımdır”.

### “Joxovurd”: “Ötən müddətdə Robert Koçaryan “Milli Həmrəylik” Partiyasının sədri Aram Arutunyanla, “Həmrəylik” Partiyasının sədri Sarkis Avetisyanla, “Milli Təhlükəsizlik” Partiyasının sədri Qarnik İsqulyanla görüşlər keçirib”

Bu arada Ermənistanın digər nəşri - “Joxovurd” da öz mənbələrinə istinad edərək yazır ki, 1 mart hadisələrində ittiham olunan Robert Koçaryan siyasətə geri döndüyünü bəyan etdikdən sonra bir sıra görüşlər keçirməyə başlayıb. “Hədəf - yeni formalaşdırılmış gücün növbədənkənar parlament seçkiləridir” yazan erməni nəşri əlavə edir ki, mənbələrə görə, Koçaryan, əsasən, “cırtdan” partiyaların sədrləri ilə görüşlər keçirir: “Ötən müddətdə Robert Koçaryan “Milli Həmrəylik” Partiyasının sədri Aram Arutunyanla, “Həmrəylik” Partiyasının sədri Sarkis Avetisyanla, “Milli Təhlükəsizlik” Partiyasının sədri Qarnik İsqulyanla görüşlər keçirib. Bu partiyaların rəhbərləri jurnalistimizlə söhbətlərində Robert Koçaryanla həmin görüş faktını inkar etməyiblər”.

“Joxovurd” daha sonra yazır: “Yeri gəlmişkən, Respublika Partiyasının icraiyyə orqanının iclasından sonra Qalust Saakyan da bəyan edib ki, əgər Koçaryan siyasətə aktiv şəkildə geri dönəcəksə və partiyanın proqramlarına yazıb məsələləri təklif edəcəksə, bu zaman əməkdaşlıq istinsa olunmayacaq”.

Beləliklə, görünən budur ki, Robert Koçaryan ciddi şəkildə siyasətə geri dönməyə və “məxməri inqilaba” qarşı əks-inqilab funksiyasını yürütmək planının qarşısına məqsəd olaraq qoyub. Görünür, növbədənkənar parlament seçkilərinə qədər bu ölkədəki siyasi böhran daha da dərinləşəcək və növbəti qarşıdurmaların baş verəcəyi proqnozları özünü kifayət qədər doğruldacaq.

*Rövşən NURƏDDİNOĞLU*

# Slovakiyada jurnalistin qətlinin sifarişçisi 70 min avro ödəyib



Slovakiyada jurnalist Yan Kutsiakın qətlini sifariş edən şəxs bunun üçün 70 min avro ödəyib. Bu məbləğin 50 mini nağd şəkildə, qalanı sonradan verilib. AZƏRTAC RİA Novosti informasiya agentliyinə istinadla xəbər verir ki, bunu jurnalistlərə xüsusi prokurorluğun adını açıqlamayan və fotosunun çəkilməməsini xahiş edən prokuroru deyib.

# İndoneziyada 1200 məhbus həbsxanadan qaçıb



İndoneziyanın Sulavesi adasında baş verən zəlzələ və sunamidən sonra 1200-ə yaxın məhbus həbsxanadan qaçıb. AZƏRTAC Interfax informasiya agentliyinə istinadla xəbər verir ki, bu barədə İndoneziyanın ədliyyə naziri Şri Puqu Utami məlumat verib.

“Mən əminəm ki, onlar zəlzələ nəticəsində xəsarət almaqdan qorxduqları üçün qaçıblar. Çox güman ki, bu, onlar üçün ölüm-dirim məsələsi olub”, - deyə o, jurnalistlərə bildirib. Nazirin sözlərinə görə, Donqalle yaşayış məntəqəsində yerləşən həbsxanadan qaçan məhbusların əksəriyyəti korrupsiya və narkotik vasitələrlə bağlı cinayət törədən şəxslərdir.

## Emmanuel Makron daxili işlər nazirinin istefasını qəbul etməyib

Fransa prezident Emmanuel Makron daxili işlər nazirinin istefasını qəbul etməkdən imtina edib. Fransanın “Franceinfo” portalının verdiyi məlumata əsasən, ölkənin daxili işlər naziri Jerard Kollomb ölkə prezidentinə istefa ərizəsi verdiyini bildirib. Ancaq prezident E.Makron onun istefasını rədd edib. Ona etibar etdiyini bildirib.



# Müşfiq Ələsgərli: “Putinin Azərbaycana səfəri ciddi önəm daşıyır”

“Rusiya prezidenti Vladimir Putinin Azərbaycana işgüzar səfəri iki qonşu ölkə arasında münasibətlərin daha da möhkəmləndirilməsi baxımından ciddi önəm daşıyır ki, yaşadığımız günlərdə buna ciddi zərurət var. Belə ki, hər iki ölkənin özlərinin iqtisadi, siyasi inkişaf proqramlarını gerçəkləşdirmək üçün qonşu ölkələr olaraq bir-biri ilə qarşılıqlı əməkdaşlığa ehtiyacları var və dövlət başçılarının qarşılıqlı səfərləri bu əməkdaşlığın şərtlərini müəyyənləşdirir, əməkdaşlığı dərinləşdirir”. Bunu SİA-ya açıqlamasında Mətbuat Şurasının sədr müavini, Jurnalistlərin Həmkarlar ittifaqının sədri Müşfiq Ələsgərli deyib.

Onun sözlərinə görə, amma Rusiya ilə Azərbaycanın əməkdaşlığı təkcə qonşuluq şərtlərindən ibarət deyil: “Həm Azərbaycan, həm də Rusiya dünyanın siyasi, iqtisadi, təhlükəsizlik, nəqliyyat xəritələrinin müəyyənləşməsində mühüm rol oynayırlar. Bu rolların uğurla tamamlanması, missiyaların milli maraqlar nəzərə alınmaqla yerinə yetirilməsi üçün dost və müttəfiq ölkələrin bir-birinə dəstək olmaları lazımdır. Dünyanın siyasi mənzərəsinin yenidən formalaşdırıldığı, dünya düzəninin yeni şərtlər üzərində qurulduğu indiki vaxtda belə müttəfiqliyə ehtiyac var.

# Rusiya Ermənistandan imtina edə bilər

*“Azərbaycan ilə Rusiya prezidentlərinin 4-cü dəfə görüşmələri münasibətlərin strateji səviyyədə olmasını göstərir”*

***Ötən həftə Rusiya prezidenti Vladimir Putin Azərbaycana səfər etdi. Bu səfər çərçivəsində aparılan danışıqlar, görüşlər və imzalanan sazişlər, ümumilikdə Rusiya-Azərbaycan münasibətlərinin inkişafına mühüm töhfələr verir. Söhbət etdiyimiz müsahiblərimiz səfərin mühüm əhəmiyyət daşıdığını və Rusiya-Azərbaycan əlaqələrinin inkişafına mühüm töhfələr verəcəyini bildirdilər.***

### Millət vəkili Eldəniz Səlimov: “Sazişlərin imzalanması Azərbaycanın dünya miqyasında böyük siyasi nüfuza malik olmasını göstərir”



- Rusiya Federasiyasının prezidenti Vladimir Putinin Bakıya işgüzar səfəri Azərbaycan və Rusiya münasibətlərində yüksək inkişafın olmasını göstərir. Belə ki, Azərbaycan və Rusiya arasında ticarət dövriyyəsinin 2018-ci ildə 34% artması və bu artımın davam etməsi Azərbaycan iqtisadiyyatının güclənməsi, qeyri-neft sektorunun inkişafı, kənd təsərrüfatı məhsullarının eksportunun inkişafı deməkdir. Qısa müddət ərzində Azərbaycan ilə Rusiya prezidentlərinin 4-cü dəfə görüşmələri münasibətlərin strateji səviyyədə olmasını göstərir. İki dövlətin iqtisadiyyatına qoyulan investisiyalar, hərbi sahədə əməkdaşlıq, mədəniyyət və turizm sahəsi ilə bağlı bir çox sazişlərin imzalanması Azərbaycanın MDB dövlətləri arasında, o cümlədən, dünya miqyasında böyük siyasi nüfuza malik olmasını göstərir.

### Millət vəkili Kamilə Əliyeva: “Rusiya ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlıq münasibətləri mövcuddur”



- Birmənalı tərzdə, demək olar ki, bu gün Rusiya-Azərbaycan münasibətləri çox uğurlu və dinamik şəkildə inkişaf edir. Azərbaycan və Rusiya prezidentləri arasında olan şəxsi münasibətlər Azərbaycan-Rusiya əlaqələrinin gündən-günə yüksələn xətlə inkişafına geniş imkanlar yaradır. Rusiya ilə Azərbaycan liderlərinin tez-tez keçirilən görüşləri münasibətlərin geniş spektrdə qurulmasına təkan verir. Vladimir Putinin Azərbaycana növbəti səfəri, son dörd ay ərzində baş tutan dördüncü görüş idi. Görüş iki ölkə arasında münasibətlərin yeni mərhələ üçün inkişafına növbəti töhfələrdən olacaq. Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 1-də Rusiya Federasiyasına reallaşan rəsmi səfəri, Soçidə Prezident Vladimir Putin ilə görüşü, səslənən bəyanatlar və imzalanan sənədlər iki ölkə arasında əməkdaşlığın keyfiyyətcə yeni mərhələsini şərtləndirdi. Məhz qurulan genişmiqyaslı əlaqələrin nəticəsi olaraq, iki ölkə arasında iqtisadi-ticarət əlaqələri hər il yüksələn xətlə inkişaf edir. Bu gün Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri sayılır. Belə ki, 2017-ci ilin yekununa görə, iki ölkə arasında əmtəə dövriyyəsi 35 faiz artaraq, 2,5 milyard dollara çatıb. Rusiyanın Azərbaycana birbaşa kapital qoyuluşu 1,5 milyard dollar təşkil edib. Azərbaycan bazarında təxminən 700 birgə müəssisə fəaliyyət göstərir ki, onlardan da üçdə biri 100 faizlik Rusiya kapitalına malikdir. Bu gün Rusiya ilə Azərbaycan arasında bütün sahələrdə, o cümlədən, siyasi, iqtisadi, humanitar, mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlıq münasibətləri mövcuddur. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə vurğulayıb ki, ictimai-siyasi və humanitar sahələrdə Rusiya ilə Azərbaycan arasında münasibətlər nümunə ola bilər.

*GÜLYANƏ*

# Əli Kərimlinin pərdəarxası oyunları davam edir



***Bu, təzə xəbər deyil. Uzun müddətdir ki, AXCP sədri Əli Kərimli "Milli Şura"nın sözdə sədri Cəmil Həsənlini qurumdan kənarlaşdırması yönümündə "baş sındırdığı" bəlli olsa da, hələlik, "Yurd" sədri, bu istəyini reallaşdıra bilmir. Ə.Kərimli elə etmək istəyir ki, C.Həsənli öz ayağı ilə tora düşsün.***

Bu yerdə yada Nikolay Karamzinin əsrlər əvvəl "Rusiyanın iki əsas bəlası yollar və ağılsızlardır" deyəndə, onun söylədikləri rus ədəbiyyatında sentimentalizm cərəyanının ən böyük nümayəndəsinin şikayəti təki anlaşılmışdı. Halbuki çox sonralar "Rusiyanın Sterni" adlandırılacaq bu şəxs ölkəsinin mərəzlərini cərrah dəqiqliyi ilə demişdi.

Müxalifət düşərgəsində təmsil olunan liderlər məram və məqsədlərini anlamayan adamlara sürəkli vədlər verib yalnız öz maraqlarını düşünənlərin hədəfləri var. Bu baxımdan, öz şəxsi maraqlarını düşünən Ə.Kərimli C.Həsənlidən yaxa qurtarmaq üçün yenə də satqınçılıq metodunu işə salmaqdadır.

## Kor-kora kor deməsə, bağrı çatlar

Yeri gəlmişkən, C.Həsənli ilə Ə.Kərimli arasındakı qarşıdurmaya əlavə olunan daha bir səbəb "Milli Şura" sədrinin "REAL" partiyasının sədri İlqar Məmmədovu "perspektivli müxalifət lideri" adlandırması olub. AXCP sədri Ə.Kərimli C.Həsənlini satqınçılıqda ittiham edərək bildirir ki, ən böyük manea İ.Məmmədovun olduğu bir məqamda C.Həsənli İ.Məmmədov barədə müsbət yönlü fikirlər söyləməklə satqınçılığını bir daha göstərir. Su axar, çuxurunu tapar- satqın satqının yanında olmalıdır. Bir də, Ə.Kərimlinin "Milli Şura" ilə birlikdə İ.Məmmədova qarşı mitinq keçirmək istəyinə qarşı çıxan C.Həsənli heç bir effekt verməyən biabırçı uğursuz mitinqlərin keçirilməsinin lazım olmadığını da söyləyir. Bu səbəbdən də, Ə.Kərimli C. Həsənlinin "Milli Şura"dan tezliklə uzaqlaşması üçün planlar hazırlayır. Ona görə də, Ə.Kərimli C.Həsənlinin istefasından dərhal sonra "Milli Şura"ya sədr keçmək arzusunu tezliklə həyata keçirəcəyinə əmin olduğunu bildirir və bununla da, dağılmaqda olan AXCP-ni, məhz "Milli Şura"nın sayəsində "ayaqda" saxlamağa çalışır. Gülməlidir. Bu ölü qurumda kimlər var ki, onun hesabına AXCP-ni "ayaqda" saxlayırsan, ay Ə.Kərimli?

C.Həsənli də Ə.Kərimlinin bu satqınlığını duyaraq, öz növbəsində, "Milli Şura"nın siyasi partiyaya çevirmək üzərində layihə hazırladığını deyir. Göründüyü kimi, son günlər Ə.Kərimli-C.Həsənli cütlüyü arasında baş verənlər və kimin-kimə "əlvida" edəcəyini isə, hər halda, yaxın zaman göstərəcək.

**Rəfiqə HÜSEYNOVA**

# "Avropadakı mühacirlər hansısa agentura şəbəkəsinin təlimatı ilə işləyirlər"

*Elşən Musayev: "Vidadi İsgəndərli və Orduxan Teymurxan sanki yemək əvəzinə zibil udur, zibil həzm edirlər"*



Müsahibimiz Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevdir

***- Elşən müəllim, xaricdəki "azərbaycanlılar" ölkəmizə qarşı şər-böhtanlarının seriyasını genişləndirirlər. Bu, o deməkdirmi ki, onlar yeni tapşırıqlar alıblar?***

- Avropadakı mühacirlər hansısa agentura şəbəkəsinin təlimatı ilə işləyirlər. Sonucda da görülən işlər haqda "ağa"larına məruzə edirlər ki, söylədikləri söyüşə, iftiraya, hədyana müqabil maliyyə vəsaiti təyin olunsun. Yoxsa öz ölkələrində, yəni Azərbaycanda yaşayarkən 2 km-lik radiusdan çıxa bilməyənlər, təyyarəni televizorda görənlər indi Avropanın, dünyanın aşağı və yuxarı təmas nöqtələrini su yoluna döndərməzdilər. Daha doğrusu, edə bilməzdilər. Deməli, normal sponsorları var. Sadəcə, öz ağıllarında olan sponsorlar. Ona görə, tandem təşkil edə biliblər. Amma bir şeyi anlamırlar: Azərbaycandakı sabit durumu, inkişafı bu yolla sarsıtmaq mümkün olsaydı, bunu onlardan əvvəlki riyakarlar, zaman-zaman millətinə kənardan xor və kor baxanlar da bacarardı. Bacarmayıblarsa, demək quldurxan kimilər də bacarmayacaq. Sponsorların pulları isə bu dəfə də havaya sovrulacaq. Hər zaman olduğu kimi. Boşboğazlıq və tərbiyəsizlik indiyə qədər kimsəyə xeyir, başucalığı gətirməyib. Onların kişiliyi, mənliyi olsa, gəlib müxalifətçiliyi burda edərlər, hansısa nabələd dalanlarda yox.

***- Vidadi İsgəndərli, Orduxan Teymurxan, Qurban Məmmədov və bu kimi digər şəxslərin azərbaycanlı adına, Azərbaycan dövlətinə iddiaları bundan sonra nə dərəcədə düzgün hesab edilə bilər?***

- Onlar kimdir ki, Azərbaycan adından danışsınlar? İddiaları da absurddur. Həm də iddia varmı ki? Onların bütün leksikonu, nitqi, danışığı bir tək söyüşdən yoğrulmayıbmı? Əsas da öndə adını çəkdiyiniz Vidadi İsgəndərli və Orduxan Teymurxan sanki yemək əvəzinə zibil udur, zibil çeynəyir, zibil həzm edirlər. Belə olmasaydı, ağızlarını açan kimi üfunət qoxmazdı. Adamlar bütün dəyərlərini itiriblər. Onu da nəzərə almırlar ki, paylaşdığımız videoya öz nəslimizdən olan xanımlar, gəlinlər, analar və bacılar da baxa bilər. Yox! Nəzərə almırlar. Çünki bütün dəyərlər itib. Daxillərində mənəvi xaos yaşanır. Bu səbəbdən, batdıqca batırlar.

***- Bu şəxslərin yaşadıqları ölkələrdə məhkəmələrə verilmələri hüquqi cəhətdən nə dərəcədə əsaslı ola bilər?***

- Hüququn imkan verdiyi vasitələr və imkanlar hər zaman vardır. Bizim, hətta Avropanın bir çox ölkələri ilə ratifikasiya olunmuş ekstradisiya müqavilələrimiz var. Digər bir variantda isə başqa vaxt demokratiyadan bəh-bəhlə danışan ölkələrdən də israrla tələb etmək lazımdır ki, sənin məkanında baş verən bu cinayətlərə, mənəvi terrora, rəzilliyə niyə göz yumursan? Hardadır sənin hüquq-mühafizə orqanın? Nədir bu sükutun səbəbi? Olsun, lap özlərinin qanunvericiliyi. Öz qanunları, məcəllələri ilə mühakimə etsinlər. Ortada yetərincə fakt var. Məgər müvəqqəti və ya daimi sığınacaq alan, hardasa vətəndaşlığı olan şəxs digər ölkəyə, həmin ölkədəki konkret şəxslərə qarşı mənəvi terror, cinayət törədə bilərmi? Təbii ki, yox. Ona görə də, insan hüquq və azadlığı barədə durmadan danışan, demokratiyanı bayraq edən dövlətlər, ilk öncə, öz ölkələrində baş verən həyasızlıqlara, hədyanlara, açıq cinayətlərə təcili reaksiya verməlidirlər və mən əminəm ki, bu reaksiya əvvəl-axır olacaq.

**GÜLYANƏ**

# "Nar"-dan autizmli uşaqlara dəstək




"Nar" əməkdaşları autizm spektr pozğunluqları ilə üzləşən uşaqların çalışdığı "Kashalata" kafe-atelyenin qonağı oldu və uşaqlarla görüşdü. Autizmli uşaqların cəmiyyətə inteqrasiyasına dəstək olmaq və onların sosial bacarıqlarını artırmaq məqsədilə "Kashalata" kafedə autizmli uşaqlar çalışır və müştərilərə özləri xidmət göstərir. Mobil operatorun əməkdaşları xüsusi diqqət tələb edən uşaqların çalışdığı kafe üçün zəruri olan avadanlıq hədiyyə etməklə yanaşı, kafenin müştərisi oldu.

Autizm Spektr Pozğunluqları ilə üzləşən uşaqlarla görüşdə "Azerfon" MMC-nin baş icraçı direktoru Qunnar Panke də iştirak edib: ""Nar" üçün yüksəkkeyfiyyətli xidmətlə yanaşı, sosial layihələri həyata keçirmək çox önəmlidir. Korporativ Sosial Məsuliyyət (KSM) strategiyamız çərçivəsində cəmiyyətimizdə xüsusi qayğıya ehtiyacı olan autizmli uşaqlara böyük məmuniyyət hissi ilə dəstək oluruq. İnanırıq ki, bir çox biznes qurumları da bu təşəbbüsümüzə qoşulacaq".

Qeyd edək ki, "Kashalata" kafe Autizm Spektr Pozğunluqları ilə üzləşən uşaqlarla işləyən "Birgə və Sağlam"İctimai Birliyinin nəzdində fəaliyyət göstərir. Reabilitasiya mərkəzində 70-dən artıq xüsusi qayğıya ehtiyacı olan autizmli uşaq var. Autizmli uşaqlara dəstək "Nar"-ın KSM strategiyası çərçivəsində baş tutub. Mobil operatorun həyata keçirdiyi KSM strategiyası haqqında daha ətraflı məlumatı nar.az saytından öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# "Bakcell"in növbəti Satış və Xidmət Mərkəzi Qəbələdə!



Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Qəbələ şəhərində yeni Satış və Xidmət Mərkəzini istifadəyə verib.

Şirkətin satış və xidmət şəbəkəsinin genişləndirilməsi planı çərçivəsində açılmış yeni Satış və Xidmət Mərkəzi Bakcell abunəçilərinə bütün növ müştəri xidmətlərindən yararlanmaq, eyni zamanda mobil cihazlar, nömrə və aksessuarlar əldə etmək imkanı verir. "Bakcell özünün ən innovativ məhsul və xidmətlərini və ölkənin ən sürətli mobil internetini Azərbaycanın bütün bölgələrində yaşayan abunəçilərinə təqdim etmək üçün xüsusi strategiya həyata keçirir. Qəbələ rayonu da bu strategiyada xüsusi yerə malikdir. Bakcell şirkətinin 4G xidməti artıq bütün Bakı və Abşeron ərazisini əhatə edir. Eyni zamanda biz Qəbələ daxil olmaqla ölkənin 30-dan çox rayon və şəhər mərkəzində 4G şəbəkəsi qurmuşuq. Qəbələdəki 4G stansiyalarının sayı artıq 6-ya çatıb və biz burada 4G şəbəkəsinin daha da genişləndirilməsi üzərində işləyirik. Bundan başqa, 16 regionda pulsuz 5 GB internet kampaniyası həyata keçiririk ki, onlardan biri də Qəbələdir. Burada yaşayan abunəçilərimiz oktyabrın sonuna kimi pulsuz internet paketi vasitəsilə 4G şəbəkəsininin üstünlüklərini sınaqdan keçirə bilərlər", deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.

Yeni Satış və Xidmət Mərkəzin açılış mərasimində Şirkətin "WiFi router" adlanan yeni məhsulu da müştərilərə təqdim edilib. Heç bir kabel çəkmədən, divarları, qapıları və pəncərələri deşmədən 32-yə qədər cihazı yüksəksürətli İnternetlə təmin etmək imkanı verən bu yeni məhsulun satışına artıq başlanılıb.

Qəbələdə yeni Satış və Xidmət Mərkəzinin açılışı münasibətilə burada yaşayan əhali bir ay müddətində mobil telefonlara 10%-ə qədər endirim ala, eyni zamanda telefon alarkən pulsuz nömrə və aksessuar əldə edə biləcək. Bakcell şirkəti özünün yüksək keyfiyyətli xidmətlərini və ölkədə ən yüksək sürətli mobil şəbəkəni Azərbaycanın bütün bölgələrində yaşayan müştərilərinə təqdim etmək məqsədilə həm mobil rabitə şəbəkəsini, həm də müştəri xidməti və satış şəbəkələrini genişləndirməyə davam edəcək.

# Ailə hüququna dair baxışlar, təlimlər və konsepsiyalar

***Qadın hüquqlarına aşağıdakı cərəyanlar və konsepsiyalar daxildir. Rəna Mirzəzadə yazır: "Liberal-reformist istiqamət (B.Fridan və onun "Qadınların Milli Təşkilatı"ndan olan həmkarları təmsil olunur), əsasən, Maarifçilik əsrində yaranmış və sonradan M.Uolstounkraft və K.Millet tərəfindən işlənib- hazırlanmış fikirlərin davamçılarını birləşdirirdi. Qadınların bərabərhüquqsuzluğunun səbəblərini liberal feministlər qadınlarda müəyyən olunmuş vətəndaşlıq və hüquqi azadlıqlarının olmamasında görürdülər. Məhz bu səbəbdən, problemin həlli kimi, sosial-iqtisadi və hüquqi reformaların keçirilməsinə üstünlük verirdilər.***

Sosial cərəyan (Z.Ayzenstayn, L.Qordon, M.O'Brayen və başqaları) marksist və feminist baxışları sintez edirdilər. Qadınların hüquq bərabərliyinin pozulmasının əsas səbəbi kimi xüsusiyyətçilik və cəmiyyətin sinfi strukturu götürülürdü. Buna bənzər fikirlər F.Engelsin "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi" əsərində öz əksini tapmışdır. Lakin proletar hərəkatından ayrıldıqda xüsusi qadın hərəkatının olmasının qəti səbəbləri, ola bilər; bu, qadının yaşadığı mühitdən (dar mənada ailə çərçivəsində), yaşından və dünyagörüşündən də asılıdır.

"Ailədə psixoloji sabitliyi saxlamaq" bəndindəki birinci suala kişilərin və qadınların verdikləri cavablarda önəmli fərqlər diqqəti cəlb edir. Əksər kişilər qadına hörməti xüsusi göstərməklə yanaşı, bəzən onların burdan sui-istifadə edərək, ailədə kişinin mövqeyini zəifləltdiklərini də qeyd edirlər. Bir qism qadınlar ailədə "kişinin yeri birinci olmalıdır" fikrinə tərəfdar olublar. Bir qism qadınlar isə, ailədə psixoloji sabitliyin yaranmasında tərəflərdən hər ikisinin eyni dərəcədə məsul olduqlarını bildiriblər. Bununla, qadın qüruru və iradəsinə yüksək qiymət veriblər və göstəriblər ki, ailədə kişinin peşəsinə, sənətinə, özünəməxsus iş qabiliyyətinə qiymət verdikdə və yaxud əksinə, qadın əməyini qiymətləndirdikdə, münasibətlərin bərabər ahəngdarlığı tənzimlənmiş olur. Burada repsodentlərin bir qismi də ailədəki psixoloji sabitliyin saxlanılmasında xarakterin səciyyəvi əhəmiyyəti olduğunu qeyd edərək, qarşılıqlı ünsiyyətdə təmkini, yaxşı ev sahibi olmağı, mərifətliliyi, tərbiyəni, düzlüyü, səmimiliyi, sədaqəti, ailəyə bağlılıq kimi keyfiyyətləri əsas göstəriblər və onlar kobudluğu, kinli olmağı, laqeydliyi, ailənin şərəf və ləyaqəti haqqında düşünməməyi evdəki sabitliyi pozan amil kimi qiymətləndiriblər. Deməli, kişi-qadın münasibətləri ailədəki psixoloji sabitliyin ən mühüm əlamətidir. "Yaxşı qadın", "yaxşı kişi" ifadələri, bilavasitə "yaxşı ailə", "sabit ailə" deməkdir. Dövr dəyişdikcə, ailə də dəyişir. Burada münasibətlərin təkmilləşməsi, inkişafı, xüsusilə qeyd olunmalıdır. Oğlanların və qızların birgə təhsil alması, birgə işləməsi onların arasındakı fərqi nizamlayır. Bu, ailədə də özünü göstərir. Sorğudakı cavablardan məlum olur ki, qadınlar bu gün özlərinə təkcə "zərif cins" kimi deyil, həm də vətəndaş, cəmiyyətin aparıcı şəxsi kimi yanaşır, ekscinsdən də, məhz özünə qarşı belə münasibət və hörmət tələb edir.

Birinci sualdakı "əlavə fikriniz" bəndinin təhlili zamanı müasir dövrdə qadınların rastlaşdıqları problemlərin səbəbi kimi, dolanışığın və yaşayışın ağır olması. Qarabağ problemi, qaçqınların vəziyyəti, ailədən kişilərin qazanc arxasınca getməsi, onların yerdə qalanlarının problemləri, bəzi bölgələrdə qızların erkən yaşda ərə verilməsi, xaricə gedən oğlanların sayının geri qayıdanlardan çox olması aşkar edilmişdir. Bəzi repsodentlərin fikrincə isə, məhz xırda ticarətlə - alverlə məşğul olmaq qadınların problemlərini artırır. Səhərdən-axşamacan, ilin bütün fəsillərində alverlə məşğul olan qadınların problemlərinin artmasının və hüquqlarının pozulmasının tez-tez şahidi oluruq. Bu isə, həllini gözləyən məsələdir. R.Mirzəzadənin fikrincə, bir qism repsodent isə, "göstərilən bütün hallarda qadın problemlərlə rastlaşır" fikrindədir. Beləliklə, keçid dövründə Azərbaycan qadınlarının rastlaşdıqları problemlər sorğulara əsasən, bu kimi amillərlə bağlıdır: sosial vəziyyətin çətinləşməsi; işsizliyin artması; səhiyyə və ali təhsil sahələrində pullu xidmətə keçilməsi; sosial müdafiə sahəsində güzəştlərin ləğv edilməsi; qaçqınlıq vəziyyəti; ailədaxili ixtilafların yaranması; elm sahəsində çalışan qadınların sayının azalması; kişilərin MDB və xarici ölkələrə emiqrasiyası; imkansızlıq, şəraitin olmaması; pessimizm yaranması; pis güzəran və yoxsulluğun ağırlığının, əsasən, qadınların üzərinə düşməsi (dul qadınlar, tək qadınlar və s.); problemlərin çoxluğu və tədqiq edilməməsi; cəmiyyəti idarə etməkdə qadınların potensialından az istifadə olunması; polisin alver edən qadınları təhqir etməsi və onlara fiziki təzyiq göstərilməsi; qadınların öz problemlərinin çoxunu dərk etməməsi.

Göründüyü kimi, keçid dövründə Azərbaycan qadınlarının rastlaşdıqları yeni problemlər sırasında, əsasən, işsizlik, sosial-iqtisadi vəziyyətin aşağı olması, ağır güzəran və yoxsulluğun qadının üzərinə düşməsi və bunların nəticəsi kimi yaranmış pessimizm diqqəti cəlb edir. Bundan əlavə, repsodentlər müsəlman ölkələrində qadın-kişi münasibətlərinin özünəməxsusluğunu vurğulamış və məsələyə bu aspektdən yanaşmışlar. Məsələn, ağır güzəran və yoxsulluğun qadınların üzərinə düşməsi problemini götürək. Yuxarıda qeyd olunduğu kimi, kişilər bu məsələyə obyektiv yanaşmış və həqiqətən də, ailə-məişət problemlərində daha çox məsuliyyəti qadınların əleyhinə çıxan F.Engelsdən fərqli olaraq, sosial feministlər ümumi sinfi və sosial problemlərdən, məhz qadın problemlərinin ayrılmasının labüdlüyünü təkid edirdilər.

Öz fikirlərinə görə daha təsirlisi radikal istiqamət idi (K.Millet, S.Fayerstoun, A.Dvorkin, K.Delfi, M.Doili və s.). Onlar qadın hüquqlarının tapdanmasının əsaslarının daha dərindən öyrənilməsi yolunu tutdular. Bu cərəyanın tərəfdarlarının fikrincə, qadın hüquqlarının pozulmasının əsas səbəbi patriarxatdır, yəni kişilərin qadınlar üzərində tam hakimlilik sistemidir.

Hal-hazırda yuxarıda göstərilən bu üç cərəyan, 60-cı illərdə olduğu kimi, özünü tam qabarıq şəkildə büruzə vermir. Bundan əlavə, son dövrlərdə çoxlu yeni cərəyanlar meydana gəlmişdir:

- "mədəni" feminizm, onun nəzəriyyəçiləri separat (kişilərdən və maskulinizmdən ayrı) qadın mədəniyyətinin inkişafı tərəfdarlarıdır;
- "humanist" feminizm, bu nəzəriyyənin hər iki cinsdən olan tərəfdarları, "qadın" və "kişilərin" ayrılıqda maraqlarının nəzərə alınmasını, humanizm meyilli mədəniyyətin inkişafına üstünlük verilməsini irəli sürürlər;
- "qara", yəni Amerika zənci feminizmi və milli rəng almış - Latın Amerikası, Afrika, müsəlman və digər feminizmlərdir. Bu cərəyanlarda qadının vəziyyəti yalnız cinsi baxımdan deyil, həmçinin, irqi və milli baxımdan analiz olunur.

R.Mirzəzadə göstərir ki, iki sistemin mövcud olduğu şəraitdə qadın hərəkatı müxtəlif fikir ayrılığından ideoloji mübarizənin mərkəzində özünə mühüm yer tutdu. Xüsusilə, keçmişdə sosialist birliyi ölkələri mövcud olduğu sosializmlə kapitalizmin ideoloji mübarizəsində qadın problemindən daha çox istifadə edilirdi. Bu mübarizənin sosial, hüquqi və s. təsiri hər iki cəmiyyət sistemində, əlbəttə, hiss olunurdu.

Qadın hüquqlarının təmin olunması məsələsi müxtəlif sistemli ölkələrin əsas qanunlarında, onların bir çox başqa rəsmi sənədlərində, hətta həmin ölkələrin bir sıra beynəlxalq bəyanatlarında öz əksini tapmışdır. Bütün bu tədbirlər qadın hüquqlarının kökü problemlərini həll edə bilməsə də, bu sahədə, heç şübhəsiz, öz müsbət nəticələrini də verirdi.

XX əsr qadın probleminin qoyuluşu və həllində, qadın hərəkatının genişlənməsində vüsətli, gərgin və eyni zamanda, bu problemin reallaşması sahəsində, demək olar ki, dönüş əsri olmuşdur.

Bir-birinə zidd olan iki ictimai sistemin mövcudluğu, bunların tarixən yanaşı yaşaması qadın problemini daha da aktuallaşdırmış, qadın hərəkatını cəmiyyətin aparıcı qüvvələrindən birinə çevirmişdir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qərbdə qadın hərəkatının ilk dövrlərində bu hərəkatın fəal iştirakçılarının, demək olar ki, əksəriyyəti sosialist mahiyyətli qurumlarda da çox fəaliyyət göstərdiklərini inkar etmək olmaz. Bu, ona görə elə xarakter almışdır ki, həmin qüvvələr, məhz qadın hüquqları uğrunda mübarizədə hərtərəfli şəkildə tərəfkeşlik dəstəyinin müdafiəsinə inam bəsləyirdilər. Lakin tədricən müəyyənləşdi ki, orada da zəif cinsə lazım gələndə, mitinqlərdə öndə gedən və çox zaman say çoxluğu artıran şəxslər kimi yanaşırdılar. Belə bir vəziyyət qadınların hüquq və azadlıqlarının təmin olunmasında əsaslı dəyişikliklər yaratmadığından, sosialist mahiyyətli təşkilatların rolu tədricən azalaraq zəiflədi.

60-cı illərdə qadın hərəkatında ekstremist cinah deyilən bir tərəf fəallaşırdı. Onun nümayəndələri əks-"cinsə" yəni kişilərə nifrət təbliği kampaniyası ideyası üzrə iş aparırdılar.

Onlar keçmiş matriarxat cəmiyyətindən fərqli olaraq ərə getmir, qüvvətli "cinsin" kişilərin heç bir sahədə tabeçilik funksiyalarını qəbul etmir və bunu qəti surətdə rədd edirdilər. Feminist ərli qadınlar kişiyə tabe olmamağın bir forması kimi "missis" müraciət formasını inkar edib, onlara "miss" deyə müraciət etməyi tələb edirdilər. Əsas səbəb isə, o gətirilirdi ki, "missis" müraciət forması, məhz qadının bir şəxsiyyət kimi kişidən asılı olduğunu, ona tabeçiliyində qaldığını açıq-aydın diqqətə çatdırırdı.

Şərqdə və Qərbdə qadın problemi, məhz qadına münasibətin əsaslı və fərqli xüsusiyyətləri ilə seçilir.

Ulu Öndər Heydər Əliyev qadınların hüquqlarına, analara ehtiramını belə ifadə edirdi: "Qadınlar, çalışın, öz intizamlılığınızı, dözümlülüyünüzü, sədaqətliliyinizi kişilərə də öyrədəsiniz.

Kişilər qadınları gərək həmişə yüksəkdə görsünlər, qadınlara gərək xüsusi hörmət etsinlər, qadınlara diqqətlə yanaşsınlar.

Səadət anlayışı qadın üçün çox böyük və geniş anlayışdır. Hər bir qadın istəyir ki, xoşbəxt olsun, o, səadətə nail olsun.

Azərbaycan qadını mərd, cəsarətli, qeyrətli və namuslu qadındır.

Nə qədər xoşbəxtik ki, bizim xalqımızı yetişdirən, böyüdən, xalqımızı artıran gözəl və mərd qadınlarımız var.

Qadınlara bundan sonra da qayğı göstərmək bizim vəzifəmiz və borcumuzdur.

Qadın Azərbaycanda cəmiyyətin ən şöhrətli və ən hörmətli üzvüdür.

Dünyanın ən gözəl qadınları Azərbaycandadır.

Mən dünyanın çox yerini gəzmişəm, qadınlarını görmüşəm. Fikrim belədir ki, Azərbaycan qadını bütün dünyadakı qadınlardan gözəldir".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 3 oktyabr


## Almanın əsas vitaminləri onun qabığındadır



Həm yay, həm də payız və qış aylarında yetişən alma növləri var. Digər şirəli meyvələrdən fərqli olaraq almanı bütün ilboyu saxlayıb istifadə etmək mümkündür. AZƏRTAC xəbər verir ki, almanın ölkəmizdə olan 300-ə qədər növündən 60-ı sənaye üçün əhəmiyyətlidir.

Almadan təbii halda istifadə etməklə yanaşı, bir sıra konservləşdirilmiş məhsullar-kompot, mürəbbə, povidlo, şirə və cem hazırlanır. Onun tərkibi şəkər, üzvi turşular, pektin və aşı maddələri, vitaminlər və s. zəngindir. Meyvənin tərkibində olan şəkərin əsas hissəsini təşkil edən qlükoza və fruktoza ürək-damar sistemi üçün çox faydalıdır. Almanın qabıqlı halda yeyilməsi daha məsləhətdir. Belə ki, onun tərkibində olan əsas vitamin və minerallar qabığında toplanır. Bu meyvə tərkibindəki antioksidant sayəsində ağciyərlərin funksiyasını tənzimləyir, diabet riskini azaldır, beyni gücləndirir, qanı təmizləyir, ürəyi və dişləri qoruyur, bədəni enerji ilə təmin edir. Hər gün bir alma yemək infarkt riskini 24 faiz azaldır. Alma sakitləşdirici, yuxugətirici effektə malikdir. Onu ürək və baş ağrıları zamanı yeyəndə ağrıkəsici təsir göstərə bilər.

Meyvənin qurusu da sağlamlıq üçün çox faydalıdır. Quru alma nəfəs darlığı və ürək xəstəliklərindən qoruyur və bədəndə zərərli maddələrin xaric olunmasına kömək edir. Lifli olduğuna görə bağırsaqları təmizləyir, qaraciyər, revmatizm və şəkərli diabet zamanı da istifadə edilir. Alma qurusunun dəmləməsi ürək və həzm sistemi xəstəlikləri zamanı faydalı təsir göstərir.

## Avtomobil qaçıranlar "isti izlər"lə yaxalanıblar



Avtomobil qaçırmaqda şübhəli bilinən şəxslər polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində yaxalanıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 1-də saat 14 radələrində Quba şəhər sakini Veysəl Mirzəbəyovun "Volkswagen" markalı avtomobilinin Qəçrəş kəndi ərazisindən qaçırılması barədə daxil olmuş məlumatla əlaqədar Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən təxirəsalınmaz tədbirlər görülüb. Nazirliyin Təhlükəsiz Şəhər Xidmətinin, Əlahiddə Çevik Polis Alayının və Nizami Rayon Polis İdarəsinin 24-cü polis bölməsi əməkdaşları ilə birgə keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində qeyd olunan nəqliyyat vasitəsi paytaxtın Nizami rayonu Q.Qarayev prospektində saxlanılıb. Avtomobili qaçırmaqda şübhəli bilinən Yevlax rayon sakini Pərviz Hüseynov da tutulub.

Həmin gün saat 13 radələrində Bakı şəhər sakini Yadigar Əkbərovun "VAZ-2106" markalı avtomobilinin Zirə qəsəbəsi ərazisindən qaçırılması barədə DİN-in "102 Zəng Mərkəzi"nə daxil olmuş məlumatla əlaqədar Xəzər Rayon Polis İdarəsinin 1-ci polis bölməsinin əməkdaşları tərəfindən əməliyyat-axtarış tədbirlərinə başlanılıb. Avtomobil qısa müddətdə qəsəbə ərazisində onu idarə edən Bakı şəhər sakini Eldar Qarayevlə birgə polis əməkdaşları tərəfindən saxlanılıb. Hər iki faktla bağlı araşdırma aparılır.

## Karate üzrə IX beynəlxalq "Baku Open" turniri başa çatıb

Azərbaycan Milli Karate Federasiyasının, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Bakı İdman Sarayında keçirilən IX "Baku Open" beynəlxalq karate turniri başa çatıb. Federasiyadan AZƏRTAC-a bildiriblər ki, üç gün davam edən yarışda 12 ölkədən 850-dək idmançı mübarizə aparıb.

Turnir çərçivəsində dünya şöhrətli karateçimiz Rafael Ağayevin rəhbərliyi ilə uşaq və yeniyetmə idmançılar üçün seminar təşkil edilib. Gələn il ənənəvi "Baku Open" beynəlxalq karate turnirinin on il-lik yubileyinin daha geniş miqyasda təşkil edilməsi nəzərdə tutulub.


ELAN

Azərbaycan Respublikası Bakı şəhəri İcra Hakimiyyəti Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi tərəfindən Nərimanov rayonu İ.Dadaşov küç, 52 №-li evin 34 № mənzilində yaşayan Məmmədov Kamil Abbas oğluna verilmiş seriya MH 151079 №-li Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


## Polo üzrə Avropa birinciliyində Azərbaycan millisinin mübarizlik kapriççosu



Dahi Öndər Heydər Əliyevin "Azərbaycan bütün dünyaya günəş kimi doğacaq" kimi məşhur kəlamı sentyabr ayının son dekadasında məxmər havası və gözəl təbiəti ilə hər kəsi valeh edən İtaliyanın qədim Toskaniya diyarına Azərbaycan millisinə dəstək olmaq üçün gəlmiş bütün həmvətənlərimizin keçirdiyi qürur və fəxarət hisslərinin qısa leytmotivini mükəmməl formada ifadə edir. Turnirdən öncə peşəkar idmançıların və idman mütəxəssislərinin yarışın debütanti olan Azərbaycan yığması haqqında düşüncə və gözləntilərinin oyundan oyuna, qələbədən qələbəyə etinasızlıqdan təəccübə, təəccübdən heyranlığa doğru kəskin dəyişməsi sanki alatoranlıqda yalnız bəzi cizgilərinin göründüyü, sübh tezdən doğan günəşin şüaları altında təbiətin füsunkar gözəlliyinin və cazibədarlığının kəşf edilməsinə bənzəyirdi.

Həqiqətən də turniri işıqlandıran xarici mətbuatdakı millimizin sərgilədiyi qeyri-adi oyun haqqında xoş sözlər və təriflər hər bir oxucuda Odlar Yurdunun qədim atçılıq ənənələri, idmançılarımızın əzmkarlığı və mübarizliyi barədə geniş təsəvvür yaradırdı. Məsələn:

"pololine.tv" ixtisaslaşmış idman portalında final görüşü haqqında verilmiş reportajda "Azərbaycan yığmasının məğrurcasına mübarizə aparması, turnir boyu oyunlarında böyük inkişaf nümayiş etdirməsi" ifadlərinin vurğulanması,

Amerika Birləşmiş Ştatlarının nüfuzlu "gcpolo.com" saytında"odlar və buzlar yurdu olan Azərbaycanın" milli yığmasının dünyanın ən inkişaf etmiş komandalarından biri kimi göstərilməsi və noyabr ayının 24-də ABŞ-nın Mayami şəhərində "Grand Champions Polo Club"da təşkil olunacaq beynəlxalq kubok turnirində Azərbaycan komandasının ABŞ idmançıları üçün güclü rəqib olacağının xüsusi qeyd olunması və həmin portalın "Facebook" səhifəsində final yarışı öncəsi Azərbaycan millisinə uğur arzulanması,

İtaliyanın "cavallo2000.it" məlumat portalında final görüşündə İtaliya yığmasına qarşı Azərbaycan millisinin çıxmasının böyük sürpriz olmasının qeyd edilməsi, yığmamızın öz oyun taktikası və peşəkarlığı ilə hamını təəccübləndirməsinin, komandamızın güclü azarkeş dəstəyinin olmasının təsbitlənməsi hər bir həmvətənimizdə müsbət emosiyalarla yanaşı millimizin özünü bu səviyyədə təsdiq edə bilməsi ilə əlaqədar fəxarət hissləri yaradırdı.

Bu gün çempionatın nəticələrini dərindən təhlil edərkən, xüsusən də İrlandiya və İtaliya yığmalarına qarşı millimizin keçirdiyi son iki oyunun gərginliyini yada salaraq həmin hissləri təkrar-təkrar keçirərkən mükəmməl və mübariz oyun nümayiş etdirən komandamıza qarşı təzyiqlərin göstərilməsini, müxtəlif üsullarla idmançılarımızın məğlubiyyətə uğradılması cəhdlərini daha yaxşı dərk edirik. Məsələn, İrlandiya ilə oyunun sonuna 18 saniyə qalmış hesab 4:3,5 olarkən qapımıza cərimə zərbəsinin təyin olunması, lakin rəqib oyunçunun bu fürsətdən lazımınca yararlana bilməməsi, əksinə öz qapılarından top buraxması, yaxud final oyununda İtaliya komandasının 8 topdan 6-nı cərimə zərbələrindən (penaltidən) vurması millimizin amansız müqavimətlə qarşılaşdığına rəğmən qitənin ikincisi olmasının dəyərinin təsəvvür etdiyimizdən də qat-qat yüksək olması tam aydın olur.

Azərbaycan millisinin bu böyük və möhtəşəm nailiyyəti ilk növbədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin idmanın, o cümlədən də atçılıq idmanının inkişafına göstərdiyi ali diqqət və qayğının konkret təcəssümüdür.

Eyni zamanda bu nəticə millimizin çempionata hazırlaşması üçün Almaniyanın Mühlen şəhərində təlim-məşq toplanışlarının təşkilindən tutmuş, rəqib komandaların oyun taktikasının öyrənil-məsinə və onlara qarşı əks fəndlərin düşünülməsinə qədər Azərbaycan Respublikasının Atçılıq Federasiyası tərəfindən həyata keçirilmiş ciddi fəaliyyətin gerçəkifadəsiolmuşdur. Bütün Azərbaycan idman sevərlərinə, polo azarkeşlərinə böyük bir bayram bəxş etmiş, Avropa meydanlarında üçrəngli bayrağımızı ucaltmış idmançılarımıza dərin təşəkkürümüzü bildirir, gələcəkdə daha yüksək zirvələrin fəth edilməsini arzulayırıq!

## "Dünya çempionu titulunu yenidən qazanmaq üçün var qüvvəmlə çalışacağam"



Macarıstanda çempionluq uğrunda mübarizə aparacağam. Yenidən dünya çempionu titulunu qazanmaq üçün var qüvvəmlə çalışacağam. Bu sözləri AZƏRTAC-a Azərbaycanın məşhur qadın güləşçisi, Yay Olimpiya Oyunlarının üçqat mükafatçısı, dünya və Avropa çempionatlarının dəfələrlə qalib və mükafatçısı Mariya Stadnik deyib. Dünya çempionatında rəqabətin gərgin olacağını bildirən M.Stadnik qeyd edib ki, qadın güləşçilərimiz medala iddiaçılar sırasında xüsusi yer tuturlar. "Hər birimiz qələbə əzminə köklənmişik. Dünya çempionatına hazırlıq məqsədilə təlim-məşqlərimiz davam edir. Bizə bəslənilən ümidləri doğrultmaq üçün üzərimizdə işləyirik", - deyə məşhur güləşçi bildirib.


**Baş redaktor:**

**Bəhruz Quliyev**

**Baş redaktorun müavinləri:**

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**